

# QANUNÇULUQ

HÜQUQ JURNALI

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin orqanı




№ 04 - aprel 2021



Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir.

Heydər ƏLİYEV,
Azərbaycan xalqının ümummilli lideri



**Əminəm ki, ədliyyə və məhkəmə orqanları hüquqi dövlət quruculuğu istiqamətində səylərini bundan sonra da davam etdirəcək və qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcəklər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ

## hüquq jurnalı

№ 4 - aprel 2021

**TƏSİSÇİ:**

**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

**BAŞ REDAKTOR:**

**Fikrət Məmmədov**

**REDAKSİYA HEYƏTİ:**

**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

*"Qanunçuluq" jurnalı 1966-cı ildən nəşr olunur. Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu sahəsində görülən işləri, ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatını, ədliyyə və məhkəmə fəaliyyətini işıqlandırır, öz səhifələrində görkəmli alimlərin, təcrübəli hüquqşünasların məqalələrinə və gənc mütəxəssislərin çıxışlarına yer verir, Azərbaycan ədliyyəsinin tarixi, məhkəmə təcrübəsi və digər mövzularda materiallar, eləcə də yeni qəbul olunan qanunların, fərmanların və digər normativ-hüquqi aktların mətnlərini müntəzəm şəkildə dərc edir.*

© "Ədliyyə Nəşriyyat Evi"MMC

# Bu sayımızda

## RƏSMİ MƏLUMAT

Prezident İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edib ....4
Prezident İlham Əliyevin Cəbrayıl və Zəngilan rayonlarına səfəri ....8

## ƏDLİYYƏ XƏBƏRLƏRİ

Beynəlxalq hüquq ictimaiyyətinin diqqəti Ermənistanın hərbi cinayətlərinə cəlb olunub ....12
Azərbaycan və Özbəkistan Ədliyyə nazirlikləri arasında Əməkdaşlıq Proqramı imzalanıb ....15
Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan mütərəqqi islahatlar məhkəmə-hüquq sistemini rəqəmsal çağırışlara uyğun təkmilləşdirir (Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədovun mətbuata müsahibəsi) ....16
Ölkə Prezidentinin tapşırıqlarının icrası ədliyyə orqanlarının diqqət mərkəzindədir ....23
Ədliyyə naziri tərəfindən vətəndaşların videoqəbulu keçirilib ....24
Ədliyyə qurumlarının fəaliyyəti təkmilləşdirilir ....25
Notariat fəaliyyəti ilə məşğul olmaq istəyən namizədlərlə test imtahanı ....26
Hakimliyə namizədlərlə yazılı imtahan keçirilib ....27
Ədliyyə işçiləri Hərbi Qənimətlər Parkı ilə tanış olublar ....28
Ədliyyə işçiləri və könüllüləri "Yaşıl Marafon" kampaniyası çərçivəsində ağacəkmə aksiyasına qoşulublar ....29
Cinayətkarlıqla mübarizədə səmərəli beynəlxalq əməkdaşlıq həyata keçirilir ....30
Yerli özünüidarəetmənin inkişaf perspektivlərinə dair videokonfrans ....30
Probasiya fəaliyyətinə dair onlayn brifinq ....32

## YENİ QANUNLAR, FƏRMANLAR...

"İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 13 aprel tarixli 292-VIQD nömrəli Qanunu ....33
"Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 142-ci maddəsinin həmin Məcəllənin 56-cı maddəsinin tətbiqi baxımından şərh olunmasına dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2021-ci il 7 aprel tarixli Qərarı ....33
"Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 85.3 və 85.4-cü maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinin V hissəsinə uyğunluğunun yoxlanılmasına dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2021-ci il 23 aprel tarixli Qərarı ....40

# Prezident İlham Əliyev Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Bakıda Hərbi Qənimətlər Parkının açılışında iştirak edib.**

Azərbaycanın Vətən müharibəsində Qələbəsinin rəsmiləşməsindən bir gün sonra - noyabrın 11-də Müzəffər Ali Baş Komandan hərbçilərlə görüşündə düşmənin qənimət götürülmüş və məhv edilmiş texnikasının nümayişi üçün planlarının olduğunu deyib. Dekabrın 10-da Zəfər paradında həmin texnikaların bir qismi nümayiş etdirilib. Eyni zamanda, Prezident İlham Əliyev Hərbi Qənimətlər Parkının salınması haqqında təşəbbüs irəli sürüb. Çox qısa zamanda görülən genişmiqyaslı işlər artıq yekunlaşıb: açıq səma altında nadir park salınıb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə Hərbi Qənimətlər Parkının ilk ziyarət bileti təqdim edilib.

Qeyd edək ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Nəticədə düşmən tərəfinin 30 il ərzində möhkəmləndirdiyi müdafiə xətləri yarıldı, hərbi resursları məhv edildi. Düşmənin canlı qüvvələri isə, sözün həqiqi mənasında, mövqelərini qoyub qaçırdılar. Ermənilərin qoyub qaçdığı atıcı silahlar, ağır texnikalar, raket kompleksləri, hərbi nəqliyyatlar və digər sursatlar qənimətlər sırasındadır. Zəfər paradının ən yaddaqalan və rəmzi kompozisiyalardan biri Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan torpaqlarda düşməndən qənimət götürdüyü 2000-dən çox avtomobilin nömrə nişanından hazırlanan lövhə də parkın ərazisindədir.

Lövhənin qarşısında çıxış edən Prezident İlham Əliyev Birinci Qarabağ müharibəsindən sonra ermənilərin azərbaycanlıların şəxsi maşınlarının nömrələrindən lövhə düzəldərək işğal edilmiş torpaqlarda nümayiş etdirdiklərini, bu hərəkətin Ermənistanın Azərbaycana qarşı, xalqımıza qarşı etdiyi etnik təmizləmənin təzahürü olduğunu qeyd edib, hazırda Hərbi Qənimətlər Parkında nümayiş olunan Azərbaycan Ordusu tərəfindən məhv edilmiş və ya qənimət kimi götürülmüş hərbi yük maşınlarının nömrələrindən hazırlanmış lövhənin isə Ermənistanın məğlubiyyətinin, erməni fərariliyinin təzahürü olduğunu vurğulayıb.

44 günlük Vətən müharibəsi dövründə döyüş meydanında davamlı məğlubiyyətlərə məruz qalan düşmən insanlıq əleyhinə və müharibə cinayətləri törədib, o cümlədən döyüş bölgəsindən uzaqda olan ərazilərə raket zərbələri endirib, dinc sakinləri qətlə yetirib. Həmin faktları xronoloji ardıcıllıqla özündə əks etdirən lövhə Parkın giriş hissəsində yerləşdirilib. Burada Şuşaya atılmış "İskəndər M" raketinin qalıqları da var. Raketin qalıqlarına baxan Prezident İlham Əliyev Ermənistanın Şuşanı "İsgəndər-M"









raketləri ilə məhv etməyə çalışdığını, bunun erməni vəhşiliyinin, hərbi cinayətin növbəti əyani sübutu olduğunu bildirib.

Nümayiş etdirilən qənimətlər sırasında KUB zenit-raket kompleksi, hərəsindən bir nümunə olmaqla tırtıllı ağır texnika da var. Onlar saz vəziyyətdədir! Düşmənin 150-dək ağır texnikası, "T-72" tankları, piyadaların döyüş maşınları, 2S1 "Qvozdika" özüyeriyən artilleriya qurğusu, "Osa" zenit-raket kompleksi və digər eksponatları da bu sıraya daxil etmək olar.

Vətən müharibəsində döyüş həm də informasiya cəbhəsində davam edirdi. Dünya ictimaiyyəti və beynəlxalq kütləvi informasiya vasitələri münaqişə bölgəsi haqqında son məlumatları ən etibarlı, birinci mənbədən - Azərbaycan Prezidentindən alırdı. Qələbə tvitləri, aparıcı media qurumlarına müsahibələr, xalqa müraciətlərdən ibarət hissələr Parkın ərazisindəki videozalda nümayiş etdirilir.

Parkın ərazisindəki hər bir element demək olar nadirdir. Məsələn, buradakı oturacaqların alt hissəsi qənimət kimi götürülmüş mərmi yeşiklərindən düzəldilib. Parkın ərazisindəki işıqlandırma sistemi mərmilərin ərintilərindən, tullantı yeşikləri isə tank mərmisinin barıt atıcısının futlyarından hazırlanıb.

Hərbi Qənimətlər Parkının ən maraqlı hissələrindən biri 30 il ərzində düşmən tərəfindən möhkəmləndirilmiş müdafiə mövqeyi əks olunan, özündə 10 elementdən ibarət mühəndis-maneələr sistemini ehtiva edən ərazidir. Burada 5 metr enində, 3-4 metr dərinlikdə qazılan tank əleyhinə xəndək, mina sahəsi, tank əleyhinə beton dirəklər və metal kirpilər, alçaq dirəklər üzərində tikanlı məftildən tor, hündür dirəklərdə məftilli tor, piyada əleyhinə mina sahəsi, az nəzərə çarpan və üççərgəli lent tipli məftil maneələri, həmçinin səngər üzərində lent tipli məftil maneələr nümayiş olunur. Bu maneələr sistemi Füzuli, Cəbrayıl, Ağdam, Tərtər və Goranboy istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin dəf etməli olduğu mühəndis sistemlərindən idi. Otuz il ərzində möhkəmləndirilən mövqelərin daxilində isə yaxşı təchiz edilmiş döyüş postu, əsgər kazarması yerləşir. Kazarmanın yanında şəxsi heyətin artilleriya və hava hücumundan qorunma-



sı üçün zavod üsulu ilə hazırlanmış sığınacaqlar, döyüş mövqeyində atıcı, pulemyotçu, qumbaraatan səngərləri, uzunmüddətli atəş nöqtələri yerləşir.

Azərbaycan Ordusuna qarşı kustar üsulla hazırlanmış rels üzərində hərəkət edən iriçaplı minaatanlardan istifadə olunurdu. Özəllik ondan ibarətdir ki, bu minaatanlar relslə arxaya doğru çəkilir, atəş açılır, daha sonra relslə gizlədilirdi. Beləliklə atəş nöqtəsini müəyyən etmək daha çətin olurdu, amma mümkünsüz deyildi.

Prezident İlham Əliyev bütün bu mühəndis-maneə sistemləri, döyüş postu və əsgər kazarması ilə tanış olub.

Hərbi Qənimətlər Parkı qazanılan tarixi Zəfərin nümayişi baxımından xüsusi əhəmiyyət kəsb edir. Buraya gələn hər bir ziyarətçiyə Vətən müharibəsinin gedişatı barədə təqdim edilən eksponatlar Azərbaycana Zəfər qazandıran döyüşləri bir daha göz önündə canlandırmağa geniş imkan yaradır.

Parkla tanışlıqdan sonra Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev təltif olunan hərbi qulluqçularla görüşüb.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

Tədbirin əvvəlində Vətən müharibəsində qəhrəmancasına həlak olmuş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Ölkə Prezidenti həm İkinci, həm də Birinci Qarabağ müharibəsinin şəhidlərinin, o cümlədən günahsız insanların, Xocalı qurbanlarının, digər mülki şəxslərin intiqamının düşməndən döyüş meydanında alındığını, döyüşərək, vuruşaraq, qan tökərək tarixi ədaləti, ərazi bü-





tövlüyümüzü bərpa etdiyimizi, düşməni torpaqlarımızdan qovduğumuzu bildirib.

Qeyd edib ki, biz inkişaf edərək torpaqlarımızı azad etdik. Çünki inkişaf bizim Qələbəmizin əsasıdır. Əgər iqtisadi inkişaf olmasaydı, əgər bizim iqtisadi müstəqilliyimiz olmasaydı, biz bunu təmin etməsəydik, lazımi dərəcədə lazım olan müasir silahlar əldə edə bilməzdik. Yenilik, inkişaf, güc - bunlar əsas amillərdir. Bir də Vətən sevgisi.

Dövlətimizin başçısı Hərbi Qənimətlər Parkı barədə məlumat verib, otuz il ərzində öz həllini tapmayan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən bəhs edib, 1987-ci ildə Heydər Əliyevin bütün vəzifələrdən, o cümlədən Siyasi Büronun üzvü vəzifəsindən uzaqlaşdırılması ilə erməni millətçiliyinin baş qaldırdığını, müstəqilliyin ilk illərində torpaqlarımızın işğal altına düşdüyünü, ölkədə hakimiyyət uğrunda mübarizə getdiyini, xaos, anarxiya, özbaşınalıq, hərc-mərclik, talançılıq hökm sürdüyünü xatırladıb, Azərbaycan xalqının dəstəyinə arxalanaraq Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gələndən sonra bütün xoşagəlməz hallara son qoyduğunu, bütün qanunsuz silahlı birləşmələri tərksilah etdiyini, sabitlik, qayda-qanun yaradıldığını və nizami ordu quruculuğuna başlandığını diqqətə çatdırıb.

Azərbaycanın ərazi bütövlüyünün 17 il ərzində qorunduğunu, xalqımızın müstəqil siyasəti dəstəklədiyini, Qarabağ məsələsində bir faiz belə güzəştə getmədiyini, danışıqlar masasında prinsipiallıq göstərərək, eyni zamanda, güclü ordu yaradıldığını bildirərək istədiyimizə nail olduğumuzu qeyd edib. Vurğulayıb ki, ordunun döyüş qabiliyyəti möhkəmləndi, yüksəldi, ordumuz müasir silah-sursat, texnika ilə təchiz edildi. Siyasi sabitlik, vətəndaş birliyi təmin edildi. Xalqın dəstəyini hiss edərək çox inamlı islahatlar aparıldı və siyasi müstəvidə artıq vəziyyət sağlamlaşdı. Beynəlxalq müstəvidə, beynəlxalq təşkilatlar tərəfindən bizə sərf edən önəmli qərarlar və qətnamələr qəbul edildi.

Dövlət başçısı iqtisadi müstəqilliyin əsas məsələlərdən biri olduğunu qeyd edərək tarixi layihələrin həyata keçirildiyini, bütün nəqliyyat, kommunikasiya, enerji xətlərinin Ermənistandan yan keçməklə çəkilməsi ilə onların dalana çevrildiyini söyləyib.

Ali Baş Komandan gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması məsələsinə toxunaraq 2016-cı ildə Aprel döyüşlərini, 2018-ci ildə Naxçıvan əməliyyatını xatırladıb, 44 günlük Vətən müharibəsinin bizim gücümüzü, iradəmizi, birliyimizi göstərdiyini vurğulayıb, Azərbaycan xalqının, əsgərinin, zabitinin yüksək mənəvi ruh göstərdiyini, peşəkarlıq, qəhrəmanlıq öz yerində olduğunu qeyd edib, bütün əməliyyatların düşünülmüş şəkildə aparıldığını diqqətə çatdırıb.

"İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir", - deyən Ali Baş Komandan bütün azad edilmiş torpaqlarımızın bərpa olunacağını bildirərək qeyd edib ki, Bizim Qələbəmiz təkcə xalqımızın qələbəsi deyil, bütün türk dünyası bizim qələbəmizlə fəxr edir. Biz yeni reallıq yaratmışıq. Biz qan tökərək, cəsarət göstərərək, düşməni qovaraq yeni reallıq yaratmışıq. Bu gün hər kəs bizimlə hesablaşmalıdır və hesablaşacaqdır. Eşq olsun Azərbaycan Silahlı Qüvvələrinə! Yaşasın Azərbaycan!

Sonra təltif olunanlar adından bir qrup zabit çıxış ediblər.

# Prezident İlham Əliyevin Cəbrayıl və Zəngilan rayonlarına səfəri

**Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva Cəbrayıl və Zəngilan rayonlarında olublar.**




Dövlətimizin başçısı, birinci xanım və qızları Cəbrayıl rayonunun girişində ucaldılmış və eyni formada, eyni dizaynla yenidən qurulmuş "Cəbrayıla xoş gəlmişsiniz!" sözləri yazılmış lövhənin qarşısına gəlib, sonra rayonda Dövlət Sərhəd Xidmətinin hərbi hissəsinin açılışında iştirak ediblər.

Dövlət Sərhəd Xidmətinin hərbi arsenalı müasir silahlarla daha da zənginləşdirilir və silahlanmaya yeni pilotsuz uçuş aparatları da daxil edilir. Prezident, Ali Baş Komandan İlham Əliyevə pilotsuz uçuş aparatları barədə məlumat verilib. Həmçinin bildirilib ki, yeni hərbi hissədə xidməti yüksək səviyyədə aparmaq üçün bütün şərait var. 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməklə, eyni zamanda, dövlət sərhədinin bərpası kimi çox mühüm bir missiyanı icra etdi. Silahlı Qüvvələrimizin tərkib hissəsi kimi Dövlət Sərhəd Xidmətinin şəxsi heyəti də yüksək peşəkarlıqla düşmənə sarsıdıcı zərbələr endirdi və onu torpaqlarımızdan qovdu.

Prezident İlham Əliyev yeni hərbi maşınlarla tanış olub və onlardan birini idarə edib, hərbi hissənin idman zalında olub. Sonra Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları ilə görüşüb və çıxış edib.

Dövlətimizin başçısı Vətən müharibəsi dövründə Azərbaycan-İran sərhədinin tam bərpa edildiyini, işğal altında olmuş 132 kilometr sərhədin bərpa edildiyini bildirib, müharibədən dərhal sonra sərhəd boyunca bütün lazımi istehkam, mühafizə işlərinin görüldüyünü, bütün sərhəd boyunca - həm Azərbaycan-İran, həm Azərbaycan-Ermənistan sərhədləri boyunca lazımi işlərin aparıldığını diqqətə çatdırıb.

Qeyd edib ki, Azərbaycan-İran sərhədi dostluq sərhədidir. Bu sərhədin qorunması Azərbaycan-İran əlaqələrinin inkişafı üçün də çox böyük önəm daşıyır. Bizim İran İslam Respublikası ilə digər istiqamətlərdə sərhədimiz var və bu, sözün əsl mənasında, dostluq, əməkdaşlıq sərhədidir. Hər iki ölkənin sərhəddən keçən vətəndaşları bundan faydalanırlar. Eyni zamanda, ildən-ilə artan yüklərin həcmi



Cəbrayıl rayonunda Dövlət Sərhəd Xidmətinin hərbi hissəsinin açılışı



Zəngilan rayonunun Ağalı kəndində sakinlərlə görüş

Azərbaycan-İran əlaqələrinin inkişafından xəbər verir.

Buraya yaxın məsafədə yerləşən Xudafərin körpüsü Azərbaycan-İran dostluğunun rəmzidir. Xudafərin körpüsü Müstəqillik Günündə - keçən il oktyabrın 18-də düşməndən azad edilmişdir. Bu ərazinin düşməndən azad edilməsində sərhədçilər xüsusi rol oynamışdır. Azadlıq mübarizəmiz məhz bu istiqamətdən başlamış və Vətən müharibəsi 44 gündən sonra Ordumuzun, Silahlı Qüvvələrimizin Qələbəsi ilə nəticələnmişdir.

Müharibə zamanı bu ərazidə gedən şiddətli döyüşlərdən bəhs edən ölkə Prezidenti bu gün müzəffər Azərbaycan Silahlı Qüvvələrinin qarşıda duran bütün vəzifələri icra etdiyini, sərhədçilərimizin hazırda işğaldan azad edilən ərazilərdə Azərbaycan-Ermənistan sərhədini də qoruduğunu bildirib, hər bir ölkənin sərhədinin onun dövlət rəmzlərindən biri olduğunu vurğulayıb.

Dövlətimizin başçısı sərhədçilərlə birgə foto çəkdirib.

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Zəngilan rayonunun Ağalı kəndində olublar.

Ermənilərin işğalçılıq siyasəti nəticəsində dağıdılmış kəndlərimizin ən müasir texnologiyalara əsaslanan quruculuq konsepsiyası əsasında bərpasına başlanılıb. Dövlətimizin başçısına və birinci xanıma məlumat verilib ki, birinci "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edir. Layihənin icrası, əsasən, 5 komponent üzrə aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələridir. Ərazidə, ilk olaraq, tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə olunmaqla 200 fərdi evin tikintisi nəzərdə tutulub. Evdaxili mühəndis kommunikasiya, isitmə sistemləri də ağıllı texnologiyalar əsasında qurula-





Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci “Ağıllı kənd” layihəsinin təməlinin qoyulması



Zəngilan Beynəlxalq Hava Limanının təməlinin qoyulması

caq. Bu kəndlərdə müasir məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri inşa olunacaq, turizm infrastrukturu formalaşdırılacaq. Bütün yaşayış evləri, sosial obyektlər, inzibati və ictimai iaşə binaları, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesi alternativ enerji mənbələri ilə təmin ediləcək. Layihənin icrasında Türkiyə, Çin, İtaliya və İsrail şirkətlərinin mütəxəssisləri də iştirak edəcəklər.

Dövlətimizin başçısı xarici şirkət nümayəndələri ilə videoformatda söhbət edib.

Türkiyə şirkətinin əməkdaşı dünyanın təbii dostu olan bərpaedilən enerji qurğusu olan "Arximed" sistemi barədə məlumat verib. Karbon dioksid emissiyası sertifikatına malik olan "Arximed" qurğusu "Ağıllı kənd"in bütün daxili elektrik enerjisi ehtiyacını ödəyəcək və artıq qalan enerjini xaricə satmaq mümkün olacaq. Bununla bərabər, sistemdən çıxan isti suyu kənddəki evlərə və otelə ötürəcəyik. Bu qurğu çox sürətlidir, yüksək məhsuldarlıqla işləyir. Heç bir səs-küy yaratmır, suyu oksigenləşdirir ki, bu da balıqlar və yaşıllıqlar üçün çox faydalıdır. Bu sistem günəş enerjisi və digər alternativ enerjilərə nisbətən artıq, yəni 24 saat işlədiyi üçün daha çox enerjini daha az güclə əldə etməyə imkan verir. Bu layihə, sadəcə, enerji istehsal etmək məqsədi daşımır, eyni zamanda, turizm infrastrukturu üçün şərait yaradır.

Prezident İlham Əliyev Ağalı kəndinin azad edilmiş torpaqlarda inşa edilən birinci kənd olduğunu bildirərək qeyd edib ki, bu kəndin çox böyük önəmi var. Çünki "Böyük qayıdış" bu gün başlayır.

Sonra "Huayvei-Azərbaycan" şirkətinin baş meneceri "Ağıllı kənd" rəqəmsal texnologiyasını təqdim edib. Bildirib ki, Qarabağda "Ağıllı kənd" üzrə qabaqcıl texnologiyaları təmin etmək üçün biz ən son məhsul və texnologiyaları təchiz edəcəyik. Biz Azərbaycanda ilk dəfə "Qiqabit AirPON" texnologiyasını istifadə edəcəyik. Bu texnologiya fiber-optik xətlərin çəkilişini 10 kilometrdən 1 kilometrə qədər qısalda bilər. Beləliklə, biz şəbəkənin qurulmasını sürətləndirə və xərclərə qənaət edə bilərik. Biz "Ağıllı kənd" layihəsinin birinci mərhələsində Qarabağda təhlükəsiz yaşayış mühiti yaradaraq, "ağıllı tədris", "ağıllı səhiyyə" və "ağıllı kənd təsərrüfatı" sistemlərini həyata keçirəcəyik.

Həmçinin İtaliya və İsrail şirkətlərinin nümayəndələri həyata keçirdikləri layihələr barədə məlumat veriblər.

Sonra dövlətimizin başçısı Zəngilan rayonunun sakinləri ilə görüşüb, onlarla söhbət edib.

Prezident İlham Əliyev Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edən birinci "Ağıllı kənd" layihəsinin təməlini qoyub.

Daha sonra Zəngilanda Beynəlxalq Hava Limanının təməlini qoyan dövlətimizin başçısı hava limanının bölgənin inkişafında mühüm rol oynayacağını vurğulayıb. Bildirib ki, yaxın gələcəkdə Zəngilanda beynəlxalq hava limanı inşa ediləcək. Bu hava limanının uçuş-enmə zolağı üç kilometrə bərabər olacaq. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etməyə qadir olacaq.

Azad edilmiş torpaqlarda ikinci hava limanının tikintisinə start verilibdir. Artıq Füzuli Beynəlxalq Hava Limanının tikintisi uğurla gedir. Bu il Füzuli hava limanının uçuş-enmə zolağı istismara veriləcəkdir. Beləliklə, biz bu il ilk təyyarələri Füzulidə qəbul edə biləcəyik.

Böyük qayıdışın başladığını deyən ölkə başçısı hava limanı-






**Zəngilan məscidinin təməlinin qoyulması**

nın dövlətimizin gücünü göstərdiyini qeyd edib. Bir qədər bundan aralıda yeni Horadiz-Zəngilan avtomagistral yolunun təməlini də qoyan Prezident İlham Əliyev mövcud yola paralel olan 4-6 zolaqlı bu yolun geniş imkanlar açacağını bildirib, Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək üçün bu layihələrin çox böyük əhəmiyyətini qeyd edib.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Heydər Əliyev Fondu tərəfindən bərpa olunacaq Zəngilan məscidində olub, görülən işlərlə maraqlanıblar. Sonra üzərində "Zəngilan məscidinin təməli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 26 aprel 2021-ci il tarixində qoyulmuşdur" sözləri yazılmış xatirə daşını məscidin divarına hörüblər.

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Zəngilan rayonunun Mincivan qəsəbəsində olublar. Erməni işğalçıların viran qoyduğu Mincivan dəmir yolu stansiyasının binasının yerləşdiyi əraziyə gələn dövlətimizin başçısı bildirib ki, mənfur düşmən bu binanı da yerlə-yeksan edib, dağıdıb, dəmir yolunu söküb, relsləri aparıb, satıb, əridib və tank əleyhinə istehkamların quraşdırılması üçün istifadə edib. Bu bina erməni faşizminin növbəti qurbanıdır, növbəti şahididir. Ermənilər bütün binalarımızı - ictimai binaları, evləri, məscidləri, muzeyləri dağıdıblar, söküblər, talayıblar, daşları oğurlayıb aparıblar, özləri üçün evlər tikiblər.



Ölkə Prezidenti dəmir yolunun, həmçinin vağzalın yenidən qurulacağını qeyd edərək bildirib ki, Horadizdən Ağbəndə qədər dəmir yolu çəkiləcək. Ondan sonra Zəngəzur dəhlizi ilə dəmir yolu Naxçıvan Muxtar Respublikasına qədər uzadılacaq. Zəngilan coğrafi nöqteyi-nəzərdən Şərqi Zəngəzur bölgəsinə aiddir və Şərqi Zəngəzurda yerləşir. Qərbi Zəngəzur da bizim tarixi torpaqlarımızdır və o torpaqlardan Zəngəzur dəhlizi keçəcəkdir. Beləliklə, Azərbaycanın əsas hissəsi Naxçıvan Muxtar Respublikası ilə dəmir yolu vasitəsilə birləşəcək.

# Beynəlxalq hüquq ictimaiyyətinin diqqəti Ermənistanın hərbi cinayətlərinə cəlb olunub

## ◆ IAACA İcraiyyə Komitəsinin videokonfrans formatında iclası keçirilib







**Dövlət başçısı cənab İlham Əliyevin qəti siyasi iradəsi ilə respublikamızda korrupsiyaya qarşı sərt mübarizə aparılmaqla bu sahədə beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verilir. Azərbaycan 140 dövləti birləşdirən Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) təşkilatçılarından biri kimi onun işində daim fəal iştirak edir və rəhbərliyində təmsil olunur.**

Aprelin 8-də Assosiasiyanın rəhbər orqanı olan İcraiyyə Komitəsinin videokonfrans formatında iclası keçirilib.

Avropa, Asiya, Yaxın Şərq, Amerika və Afrika qitələrindən olan bir sıra dövlətlərin, BMT-nin və digər beynəlxalq təşkilatların yüksək səviyyəli nümayəndələrinin iştirak etdiyi iclasda beynəlxalq antikorrupsiya tədbirləri, qurumun gələcək fəaliyyəti və digər təşkilati məsələlər müzakirə olunub.

Tədbirin əvvəlində qurumun vitse-prezidenti, ölkəmizin ədliyyə naziri Fikrət Məmmədov çıxış edərək yaradılmasının 15 illiyi qeyd olunan Assosiasiyanın qlobal antikorrupsiya mübarizəsində mühüm rolunu, beynəlxalq əməkdaşlığa verdiyi töhfələri vurğulayıb.

Nazir Azərbaycanda dövlət siyasətinin prioriteti olan korrupsiyaya qarşı aparılan qəti mübarizə, ölkəmizin səmərəli beynəlxalq əməkdaşlığı barədə məlumat verərək, yaxşı təcrübələrin bölüşülməsinin əhəmiyyətini qeyd edib, IAACA-nın inkişafına, qlobal pandemiya ilə əlaqədar onlayn və ya hibrid platformalarından fəal istifadə etməklə, tədris tədbirlərinin və vebinarların təşkilinə dair təkliflər irəli sürüb.

Çıxışda Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə əzəli torpaqlarımızın 30 illik erməni işğalından azad olunduğu, təcavüzkar düşmənin beynəlxalq humanitar hüquq normalarını kobud şəkildə pozaraq dinc şəhərlərimizi qəsdən raket atəşinə tutaraq uşaqlar və qadınlar daxil olmaqla 100-ə yaxın mülki vətəndaşın həlak olması ilə nəticələnən müharibə cinayətləri barədə məlumat verilib. Eyni zamanda, Ermənistan tərəfinin xarici muzdlu döyüşçüləri cəlb etməsi, humanitar yardım adı altında münaqişə zonasına qanunsuz silah-sursat göndərməsi tədbir iştirakçılarının diqqətinə çatdırılıb. İşğal dövründə həmin ərazilərin qeyri-qanuni iqtisadi fəaliyyət, terrorçuluq, narkotrafik və digər cinayət əməlləri üçün istifadə olunduğu vurğulanıb.

İclasda azad edilmiş torpaqlarımızın ermənilər tərəfindən büsbütün dağıdıldığı, maddi və mədəni sərvətlərin məhv və ya talan edildiyi qeyd olunaraq mülki vətəndaşların ölümünə səbəb olan minalanmış ərazilərin xəritəsinin Azərbaycana verilməməsinin beynəlxalq hüquqa zidd olmaqla Ermənistanın törətdiyi insanlıq əleyhinə cinayətlərin təzahürü olduğu bildirilib.

Qeyd olunub ki, törədilmiş cinayətlərin ölkəmizdə araşdırılması ilə bağlı bir çox xarici, o

cümlədən iclasda təmsil olunan dövlətlərdə zəruri istintaq hərəkətlərinin aparılmasına dair nazirlik tərəfindən 50-dən artıq sorğu göndərilib.

Tədbirdə IAACA-nın fəaliyyətinin səmərəliliyinin artırılması, keçiriləcək mühüm tədbirlər, o cümlədən BMT Baş Assambleyasının xüsusi sessiyasının tarixində ilk dəfə korrupsiyaya qarşı mübarizəyə həsr olunması barədə məlumat verilib və həmin tədbirdə IAACA-nın iştirakı ilə bağlı və s. əhəmiyyətli məsələlər müzakirə edilərək, müvafiq qərarlar qəbul olunub.

## Daşkənd Hüquq Baharı Beynəlxalq Forumu keçirilib







**Aprelin 22-23-də Özbəkistanın Ədliyyə Nazirliyi tərəfindən rəqəmsal innovasiyalara əsaslanan Dördüncü Sənaye İnqilabı dövründə hüquqa baxış mövzusunda videokonfrans formatında təşkil olunmuş Daşkənd Hüquq Baharı Beynəlxalq Forumu keçirilib.**

Avropa, Asiya və Amerika qitələrindən bir çox dövlətlərin ədliyyə nazirlərinin, məhkəmə və digər orqanların, maliyyə institutlarının rəhbərlərinin, hakimlərin, vəkillərin və elm xadimlərinin, habelə BMT, ATƏT, Dünya Bankı, Venesiya Komissiyası və digər nüfuzlu beynəlxalq təşkilatların yüksək təmsilçilərinin iştirakı ilə keçirilən mötəbər forumda Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov iştirak edib.

"Dövlətin hüquq siyasətinin həyata keçirilməsi: mövcud problemlər və gələcək tendensiyalar" adlı ədliyyə nazirlərinin sessiyasında çıxış edən Azərbaycanın ədliyyə naziri ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızda İKT-nin inkişafını, rəqəmsal cəmiyyətin Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən olduğunu vurğulayıb.

Bildirilib ki, qanunun aliliyinin gücləndirilməsi və insan hüquqlarının qorunması dövlətin hüquq siyasətinin mərkəzində dayanır və bununla bağlı ölkəmizdə mükəmməl qanunvericilik bazası yaradılaraq dinamik inkişaf edir.

Eyni zamanda dövlət başçısının rəhbərliyi ilə məhkəmə sisteminin təkmilləşdirilməsi üzrə xaricdə təqdir olunan islahatlar qeyd edilib, Dünya Bankının iştirakı ilə məhkəmə infrastrukturunun müasirləşdirilərək yüksək texnoloji (hi-tech) məhkəmələrin yaradıldığı bildirilib, artıq bir neçə ildir ki, kommersiya mübahisələri üzrə icraatın yalnız elektron qaydada aparıldığı vurğulanıb.

Məhkəməyə müraciət etmək hüququnun yaranması anından məhkəmə qərarlarının icrasının tamamlanmasına qədər bütün prosesi əhatə edən "Elektron məhkəmə"nin ədalət mühakiməsinə əlçatanlığı əhəmiyyətli dərəcədə genişləndirdiyi, şəffaflığı və operativliyi təmin etdiyi diqqətə çatdırılıb, artıq bütün məhkəmələrinin 2/3-də tətbiq edilən e-məhkəmənin ölkə üzrə genişləndirilməsi ilə bağlı görülən işlərə toxunulub.

Məhkəməyə əlçatanlığın asanlaşdırılması məqsədilə kompüterə qoşulmadan məlumatları dərhal əldə etməyə, prosesdə mobil qaydada iştiraka və s. imkan verən "Mobil məhkəmə" tətbiqindən bəhs olunub.

Dövlət başçısının humanist siyasətinin təzahürü olaraq öl-

kəmizdə əfvetmə və vaxtından əvvəl şərti azad etmə institutlarının davamlı tətbiqindən danışan nazir cəza siyasətinin humanistləşdirilməsi üzrə atılan mühüm addımları, cinayət qanunvericiliyinə 500-ə yaxın dəyişikliklər edilməklə bir çox əməllərin dekriminallaşdırıldığını, azadlıqdan məhrum etməyə alternativ cəzaların daha effektiv icrasına nəzarətin həyata keçirilməsi məqsədilə yaradılmış Probasiya xidmətinin səmərəli fəaliyyətini, o cümlədən elektron qolbaqların geniş tətbiqini qeyd edib.

Forum iştirakçıları vətəndaşlara göstərilən çoxşaxəli elektron ədliyyə xidmətləri, o cümlədən notariat hərəkətlərinin məsafədən, asan və çevik aparılması üçün rəqəmsal innovasiyalarının tətbiqi, həmçinin nazirlik tərəfindən yaradılaraq son zamanlar genişləndirilmiş "Mobil notariat" proqram təminatı barədə məlumatlandırılıb.

Eyni zamanda Azərbaycan brendi olan və ədliyyənin də mühüm xidmətlər göstərdiyi "ASAN xidmət"in səmərəli fəaliyyəti və dövlət xidmətlərinin inkişafına töhfəsinə görə BMT-nin mükafatlarına layiq görüldüyü qeyd olunub, tədbirdə iştirak edən dövlətlərdən artıq ASAN modelindən bəhrələndiyi bildirilib.

Tədbirdə bu və digər innovasiyalar barədə məlumat böyük marağa səbəb olub və iştirakçıların sualları cavablandırıb.

Ədliyyə naziri çıxışında Ermənistanın ölkəmizə qarşı işğalçılığı, törətdiyi müharibə və insanlıq əleyhinə cinayətləri ilə bağlı xarici həmkarlarına, o cümlədən forumda iştirak edən və digər bir çox dövlətlərə müraciətlər ünvanladığını xatırladaraq tədbir iştirakçılarını Ermənistanın müharibə və ondan sonrakı dövrdə beynəlxalq humanitar hüquq normalarına zidd davam edən cinayət əməlləri barədə məlumatlandırıb.

Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunması uğrunda xalqımızın Böyük Qələbə qazandığı Vətən müharibəsi zamanı təcavüzkar düşmənin beynəlxalq humanitar hüquq normalarını kobud şəkildə pozmaqla yaşayış məntəqələrimizi qadağan olunmuş kassetli və fosforlu bombalarla atəşə tutaraq uşaqlar və qadınlar daxil olmaqla 100-ə yaxın mülki vətəndaşın həlak olması ilə nəticələnən müharibə cinayətləri xüsusilə diqqətə çatdırılıb.

Bildirilib ki, kiçik Tərtər şəhərinə 16 min bomba atılıb. Azad edilmiş torpaqlara səfər edən xarici jurnalistlər ermənilər tərəfindən viran edilmiş Ağdam şəhərini isə Qafqazın "Xirosima"sı adlandırırlar.

F.Məmmədov Ermənistanın humanitar yardım adı altında mülki aviasiya vasitəsilə qanunsuz silah-sursat alaraq münaqişə zonasına göndərməsini, xarici muzdlu döyüşçüləri cəlb etməsini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

İşğal dövründə həmin ərazilərin cinayət, o cümlədən qeyri-qanuni iqtisadi fəaliyyət üçün istifadə olunduğu vurğulanaraq törədilmiş cinayətlərin ölkəmizdə araşdırılması ilə bağlı bir çox xarici, o cümlədən forumda təmsil olunan dövlətlərə nazirlik tərəfindən 50-dən artıq sorğu göndərildiyi və bununla əlaqədar zəruri istintaq hərəkətlərinin aparılmasının tələb olunduğu qeyd edilib.

Tədbirdə beynəlxalq ictimaiyyətin şahidi olduğu erməni vandalizminin nəticələri - azad edilmiş torpaqlarımızın büsbütün dağıdıldığı, maddi və mədəni sərvətlərimizin, dini abidələrimizin məhv və ya talan edildiyi bildirilib.

Müharibədən sonra Ermənistanın mina xəritələrini qərəzli olaraq verməməsinin dinc sakinlər və sülhməramlılar arasında xəsarətlərə və yeni qurbanlara səbəb olduğu, yaralanan və həlak olan ancaq mülki vətəndaşların sayının 100-ü ötdüyü təəssüflə qeyd edilib.

Bununla belə Azərbaycanın bölgədə yeni formatda əməkdaşlığa hazır olduğu, həmçinin işğaldan azad edilmiş torpaqlarımızın bərpası ilə bağlı müasir İKT-lər tətbiq edilməklə "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyasından istifadə edərək nəhəng quruculuq işlərinin aparıldığı qeyd olunub.

Aprelin 23-də davam edən forumda pandemiya şəraitində hüquq institutlarının fəaliyyəti, arbitraj, mediasiya və vəkilliyin inkişaf perspektivləri, dövlət orqanlarının şəffaflığı üçün rəqəmsal imkanlar, korrupsiyaya qarşı mübarizə və digər bir çox aktual mövzular üzrə müzakirələr aparılıb.

# Azərbaycan və Özbəkistan Ədliyyə nazirlikləri arasında Əməkdaşlıq Proqramı imzalanıb

**Özbəkistan Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə Dördüncü Sənaye İnqilabı dövründə hüquqa baxış mövzusunda videokonfrans formatında Daşkənd Beynəlxalq Hüquq Forumu keçirilib.**

Forumda Azərbaycanın ədliyyə naziri məhkəmə-hüquq sistemindəki innovasiyalar barədə çıxış edərək müsbət təcrübəmizlə bölüşüb, iştirakçıların diqqətini Ermənistanın insanlıq əleyhinə və müharibə cinayətlərinə cəlb edib.

Tədbir çərçivəsində, həmçinin Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədovun və Özbəkistanın ədliyyə naziri Ruslanbek Davletovun videokonfrans formatında görüşü keçirilib.

Görüşdə əsrlərdir dost və qardaşcasına yaşayan Azərbaycan və Özbəkistan arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi, bu əlaqələrin möhkəmlənməsində Prezident İlham Əliyevin və Prezident Şavkat Mirziyoyevin xüsusi rolu vurğulanıb.

Ədliyyə naziri F.Məmmədov pandemiya şəraitində aktual mövzuya həsr olunmuş və yüksək səviyyədə təşkil olunan Beynəlxalq Forumun əhəmiyyətini qeyd edib, dövlət başçısının rəhbərliyi ilə bütün sahələrdə, o cümlədən ədliyyə və məhkəmə sistemində müasir İKT tətbiq olunmaqla ardıcıl islahatların aparıldığını söyləyib.

İki ölkə arasında əlaqələrin inkişafından məmnunluq bildirilərək Vətən müharibəsi zamanı Özbəkistanın ilk günlərdən Azərbaycanın haqlı mövqeyini dəstəkləməsindən minnətdarlıq ifadə olunub. Həmçinin Özbəkistanın səfiri ilə nazirlikdə keçirilən görüşə toxunularaq onun Ermənistanın raket hücumlarına məruz qalan şəhərlərimizə səfər edərək dinc əhaliyə qarşı törədilmiş müharibə cinayətlərinin canlı şahidi olduğu vurğulanıb.







Özbəkistanın ədliyyə naziri azərbaycanlı həmkarının Forumda iştirakını yüksək qiymətləndirərək respublikamızın müxtəlif, o cümlədən ədliyyə sahəsindəki müsbət təcrübəsini təqdir edib, əlaqələrin inkişafı üçün yeni imkanların yarandığını vurğulayıb. R.Davletov torpaqlarımızın azadlığı uğrunda aparılan Vətən müharibəsi zamanı yaşanan hadisələrin ölkəsində narahatlıqla izlənildiyini qeyd edib.

Görüşdə xalqımızın ümummilli lideri Heydər Əliyevin Özbəkistana tarixi səfəri zamanı, həmçinin Ədliyyə nazirlikləri arasında imzalanmış əməkdaşlığa dair Sazişin implementasiyasına toxunularaq nümayəndə heyətlərinin ikitərəfli səfərləri və faydalı təcrübə mübadiləsinin aparıldığı bildirilib. Özbəkistan nümayəndə heyətlərinin ölkəmizə səfərlər edərək ədliyyə sahəsində innovasiyalarla, Azərbaycan brendi olan ASAN xidmətlə tanış olduğu və bu sahədə müsbət təcrübəmizdən bəhrələnildiyi qeyd olunub.

COVID-19 qlobal pandemiyasına baxmayaraq əlaqələrin dərinləşdirilməsinə böyük maraq göstərilərək Azərbaycan və Özbəkistan Ədliyyə nazirlikləri arasında 2021-2022-ci illər üçün Əməkdaşlıq Proqramı imzalanıb.

Əməkdaşlıq Proqramı ədliyyə və məhkəmə sistemlərinin, elektron xidmətlərin və rəqəmsal innovasiyaların tətbiqinin öyrənilməsi, qanunvericilik, məhkəmə ekspertizası, qeydiyyat, notariat, hüquqşünasların tədrisi və digər sahələrdə konkret tədbirləri, onların pandemiya şəraitinə uyğun bilavasitə və ya videokonfrans formatında keçirilməsini nəzərdə tutur.

İmzalanma mərasimində sənədin qarşılıqlı fəaliyyətə mühüm töhfə verəcəyi, hüquqi sahədə təcrübə mübadiləsinin hər iki tərəf üçün faydalı olacağı vurğulanaraq əlaqələrimizin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olunub.

# Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan mütərəqqi islahatlar məhkəmə-hüquq sistemini rəqəmsal çağırışlara uyğun təkmilləşdirir



*Aprelin 22-23-də hüquq sisteminin rəqəmsal texnologiyalar əsasında inkişafına, bu sahədə müasir çağırışlara həsr olunmuş "Daşkənd Hüquq Baharı" Beynəlxalq Forumu keçirilib. Forumda iştirakçılar ölkəmizin məhkəmə-hüquq sistemindəki islahatları və tətbiq olunan innovasiyalar, həmçinin Ermənistanın insanlıq əleyhinə və müharibə cinayətləri barədə geniş məlumatlandırılmışdır.*

*Ölkəmizin hüquq sistemində müsbət təcrübəsinə böyük maraq göstərilərək Özbəkistan mediası tədbirdə Azərbaycanı təmsil etmiş ədliyyə naziri Fikrət Məmmədovdan müsahibə almışdır. Müsahibə Özbəkistanın "fikr.uz" portalında dərc olunmuşdur (http://fikr.uz/blog/ziyonet_simpozium/intervju-s-ministrom-justicii-azerbajdzhanskoj-respubliki-fikretom-mamedovym.html).*

*Eyni zamanda forumun mövzusunun aktual və əhəmiyyətli olduğu nəzərə alınaraq AZƏRTAC-a verilmiş həmin müsahibə ölkə mətbuatında da geniş işıqlandırılmışdır. Müsahibəni təqdim edirik:*

**- Hörmətli Fikrət müəllim, məlumat verdiyimiz kimi, bu yaxınlarda keçirilmiş "Daşkənd Hüquq Baharı" Beynəlxalq Forumu Dördüncü Sənaye İnqilabı dövründə hüquqa baxış mövzusuna həsr olunub. Bu sahədə qlobal tendensiyaları müzakirə etmək və müsbət təcrübələri bölüşmək baxımından mühüm platforma olan forumun Azərbaycan üçün əhəmiyyəti barədə məlumat oxucularımız üçün maraqlı olardı.**

- Əvvəlcə, müsahibə üçün təşəkkürümü bildirirəm. Qlobal pandemiya ilə əlaqədar bütün dünya üçün çətin bir vaxtda aktual mövzuya - rəqəmsal innovasiyalara əsaslanan Dördüncü Sənaye İnqilabı dövründə hüquqa baxış mövzusuna həsr olunmuş Beynəlxalq Hüquq Forumunun keçirilməsi olduqca əhəmiyyətlidir.

Forumun məqsədi müasir tendensiyaları və hüququn inkişaf perspektivlərini müzakirə etmək, beynəlxalq və yerli mütəxəssislər üçün açıq dialoq platforması yaratmaq, habelə hüquqi sahədə rəqəmsal texnologiyalara əsaslanmaqla həyata keçirilən islahatlar barədə beynəlxalq hüquq ictimaiyyətini məlumatlandırmaq idi.

Özbəkistan Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə keçirilmiş forumda iştirak edən xarici dövlətlərin ədliyyə nazirləri, məhkəmə və digər orqanların, maliyyə institutlarının rəhbərləri, hakimlər, vəkillər və elm xadimləri tərəfindən Dördüncü Sənaye İnqilabı dövründə dövlətin hüquq siyasəti, rəqəmsallaşan dünyada məhkəmə sisteminin müstəqilliyi, pandemiya şəraitində hüquq institutlarının fəaliyyəti, arbitraj, mediasiya və vəkilliyin inkişaf perspektivləri, dövlət orqanlarının şəffaflığı üçün rəqəmsal imkanlar, elektron notariat, korrupsiyaya qarşı mübarizə və digər bir çox aktual mövzular üzrə çıxışlar edilib, faydalı fikir və təcrübə mübadiləsi aparılıb.

Ölkəmizin də bu tədbirdə təmsil olunması Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sistemində aparılan islahatlar və tətbiq olunan rəqəmsal innovasiyalar barədə beynəlxalq hüquq ictimaiyyətini məlumatlandırmaq, müsbət təcrübəmizlə bölüşmək imkanı yaradıb.

Xüsusilə forumda Avropa, Asiya və Amerika qitələrindən bir çox dövlətlərin, habelə BMT, ATƏT, Dünya Bankı, Venesiya Komissiyası və digər nüfuzlu beynəlxalq təşkilatların yüksək vəzifəli təmsilçilərinin iştirak etdiyi nəzərə alınaraq Azərbaycan həqiqətləri, tarixboyu bizə və Türkiyəyə qarşı qondarma iddialar irəli sürən, soyqırımları törədən təcavüzkar Ermənistanın insanlıq əleyhinə və müharibə cinayətləri konkret faktlarla diqqətə çatdırılıb.

**- İşğalçı Ermənistanın ölkəmizə qarşı təcavüzkar hərəkətlərinin, törətdiyi hərbi**

**cinayətlərin dünyada ifşa olunması saxta erməni təbliğatının qarşısının alınması baxımından mühüm əhəmiyyət kəsb edir...**

- Doğrudur. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik və yenilməz sərkərdəliyi ilə xalqımızın Böyük Qələbə qazandığı Vətən müharibəsində acı məğlubiyyətə uğrayan Ermənistan öz çirkin niyyətlərindən əl çəkməyərək beynəlxalq humanitar hüquq normalarına zidd cinayət əməllərini davam etdirir.

Bu baxımdan tarixi həqiqətlərin, iki yüz ildən çox müddətdə təcavüzkar erməni millətçilərinin xalqımıza qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması xüsusilə əhəmiyyətlidir.

Fevralın 26-da Ermənistanın xalqımıza qarşı törətdiyi Xocalı soyqırımının 29-cu ildönümündə dövlətimizin başçısının yerli və xarici jurnalistlərlə keçirilən mətbuat konfransında tutarlı, tarixi faktlara əsaslanan çıxışı soyqırımı həqiqətlərinin, Ermənistanın törətdikləri provokasiyaların və cinayətlərin dünyaya çatdırılması üçün növbəti önəmli addım oldu.

Azərbaycan həqiqətlərini və 44 günə əldə etdiyimiz Qələbəni 4 saat müddətində 4 dildə səlis formada dünya mediasının diqqətinə çatdıran Prezident İlham Əliyev hər kəslə öz dilində danışan, zəngin dünyagörüşə malik siyasi xadim olaraq bir daha bütün dünyaya sübut etdi ki, Azərbaycan həm ön cəbhədə, həm də informasiya məkanında layiqli və düzgün cavablar verməyə qadirdir.



Ölkə rəhbərinin Vətən müharibəsi zamanı dünyanın aparıcı KİV-lərinə verdiyi çoxsaylı müsahibələr də Azərbaycana qarşı dezinformasiya yaymaq, tarixi həqiqətləri, faktları təhrif etmək istəyənlərə yetərli cavab oldu.

Bu günlərdə qondarma "erməni soyqırımı" ilə bağlı ABŞ Administrasiyasının yanlış və ədalətsiz bəyanatı da Prezident İlham Əliyevin vurğuladığı kimi, tarixi səhv olmaqla regionda sülhə və əmin-amanlığa ciddi təhdiddir. Tarixi həqiqətlərin təhrif edilməsi təəssüf doğurmaqla, Azərbaycan dövləti və xalqı hər zaman olduğu kimi, bu məsələdə də qardaş Türkiyənin yanında olaraq bu bəyanatı pisləyir və qəbuledilməz hesab edir.

Təcavüzkar erməni millətçilərinin 1918-ci ildə azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımı və bu tarixi hadisələrin obyektiv mənzərəsini yaradan Quba kütləvi məzarlığı, Xocalı soyqırımı, insanlıq əleyhinə törətdiyi digər cinayətlər - bütün bu və digər faktlar özünü dünyaya soyqırımına məruz qoyulan millət kimi təqdim edən ermənilərin əsl simasını üzə çıxarır.

Beynəlxalq qurumların, diplomatik korpusun təmsilçiləri Ermənistanın raket hücumlarına məruz qalan şəhərlərimizə səfər edərək dinc əhaliyə qarşı törədilmiş müharibə cinayətlərinin canlı şahidi olublar.

Həmçinin işğaldan azad edilmiş torpaqlarımıza səfərlər edən beynəlxalq ictimaiyyətin nümayəndələri və xarici jurnalistlər erməni vandalizminin nəticələrini - həmin ərazilərin büsbütün dağıdıldığını, maddi və mənəvi sərvətlərimizin, dini abidələrimizin məhv edildiyini öz gözləri ilə görüblər. Təsadüfi deyil ki, xarici jurnalistlər ermənilər tərəfindən viran edilmiş Ağdam şəhərini Qafqazın "Xirosima"sı adlandırıblar.

Bu hadisələr tarixi həqiqətləri təhrif edərək beynəlxalq birliyi fəal surətdə yanlış məlumatlandıran Ermənistanın yalan təbliğatını dünyada ifşa edir.

Dünyanın 120 dövlətini birləşdirən Qoşulmama Hərəkatının beynəlxalq hüquq və ədalət prinsipləri çərçivəsində fəaliyyəti xüsusi qeyd olunmaqla

Azərbaycanın ədalətli mübarizəsinin, haqlı mövqeyinin müdafiəsində üzv ölkələrin prinsipiallıq göstərərək dəstəyi, əlbəttə ki, Azərbaycan Prezidenti İlham Əliyevin beynəlxalq aləmdə yüksək nüfuzunun və hörmətinin əyani təzahürüdür. Hazırda Qoşulmama Hərəkatına sədrlik edən dövlətimizin başçısının qlobal əhəmiyyətli, o cümlədən pandemiyaya qarşı mübarizədə səylərin gücləndirilməsi ilə bağlı təşəbbüsləri, dünya ölkələrinin COVID-19 vaksini ilə ədalətli təminatına dair çağırışları beynəlxalq ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır və qəbul olunur.

Respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çağırışlarına qoşulan ədliyyə işçiləri tərəfindən Azərbaycan həqiqətlərinin təbliği və geniş yayılması ilə bağlı mütəmadi çıxışlar edilir, Ermənistanın işğalçılıq faktlarının və müharibə cinayətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində məqsədyönlü iş aparılır. Bununla bağlı nazirliyin rəsmi internet saytında üç dildə "Qarabağ Azərbaycandır!" elektron məlumat platforması yaradılaraq interaktiv fəaliyyət göstərir.

Eyni zamanda, xarici ölkələrin Ədliyyə nazirliklərinə və nüfuzlu beynəlxalq təşkilatlara tərəfimizdən 400-ə yaxın müraciət ünvanlanıb. Dünya ictimaiyyətinin düzgün və dolğun məlumatlandırılması məqsədi daşıyan həmin müraciətlər reaksiyasız qalmayıb, bəzi dövlətlər münasibət bildirərək bölgəyə humanitar yardım məqsədilə dəstək göstərilməsini bildirib, beynəlxalq hüquq çərçivəsində öhdəliklərə hörmət edilməsinə, bütün qanun pozuntularının araşdırılacağına ümidvar olduqlarını ifadə ediblər.

Daşkənd Hüquq Forumunda da tədbir iştirakçıları Ermənistanın beynəlxalq humanitar hüququn normalarını kobud şəkildə pozmaqla yaşayış məntəqələrimizi qadağan olunmuş kasetli və fosforlu bombalarla atəşə tutaraq uşaqlar və qadınlar daxil olmaqla, 100-ə yaxın mülki vətəndaşın həlak olması ilə nəticələnən müharibə cinayətləri barədə məlumatlandırılıb.

Eyni zamanda, Ermənistanın humanitar yardım adı altında mülki aviasiya vasitəsilə qanunsuz silah-sursat alaraq münaqişə zonasına göndərməsi, xarici muzdlu döyüşçüləri cəlb etməsi, işğal dövründə torpaqlarımızın cinayət, o cümlədən qeyri-qanuni iqtisadi fəaliyyət üçün istifadə etməsi vurğulanıb.

Bildirməliyəm ki, törədilmiş cinayətlərin ölkəmizdə araşdırılması ilə bağlı bir çox xarici dövlətlərə zəruri istintaq hərəkətlərinin aparılması üçün nazirlik tərəfindən 50-dən artıq sorğu göndərilib və forumda iştirak edən həmin ölkələrin nümayəndələrinin diqqəti buna cəlb olunub.

Tərəfimizdən, həmçinin müharibədən sonra Ermənistanın mina xəritələrini qərəzli olaraq verməməsinin dinc sakinlər və sülhməramlılar arasında xəsarətlərə və yeni qurbanlara səbəb olduğu, yaralanan və həlak olan ancaq mülki vətəndaşların sayının 100-ü ötdüyü diqqətə çatdırılıb.

Düşmənin qeyd edilən bu və digər insanlıq əleyhinə cinayətlərinin mümkün platformalardan istifadə olunmaqla beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması Azərbaycana qarşı uzun illərdir Ermənistanın törətdiyi işğalçılıq siyasətinə, soyqırımı və digər cinayətlərinə hüquqi qiymət verilməsinə nail olmaqdır.

Bununla yanaşı, sülhsevər dövlət olaraq bölgədə yeni formatda əməkdaşlığa açıq olan Azərbaycan tərəfindən işğaldan azad edilmiş doğma torpaqlarımızın dirçəldilməsi ilə bağlı nəhəng bərpa-quruculuq işləri aparılır.

Vətən müharibəsində Böyük Qələbəmizdən sonra dövlətimizin başçısı İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş ərazilərə müntəzəm, o cümlədən yenicə Cəbrayıl və Zəngilan rayonlarına səfərləri, ikinci beynəlxalq hava limanının, yeni avtomobil yolunun təməlinin qoyulması və digər görülən tədbirlər doğma torpaqlarımızın dirçəldilməsinin təminatı olmaqla "Böyük qayıdış"ın başlamasından xəbər verir.

Respublikamızın Birinci vitse-prezidentinin təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən ölkəmizin hərtərəfli tərəqqisi naminə gerçəkləşdirilən mühüm layihələr çərçivəsində azad edilmiş ərazilərdə dini abidə və məscidlərimizin bərpa olunmasına xüsusi önəm verilir.

Eyni zamanda, yenidənqurma prosesi çərçivəsində "ağıllı şəhər", "ağıllı kənd" və "yaşıl enerji" konsepsiyalarından istifadə olunur. Prezident İlham Əliyevin Zəngilana səfəri zamanı birinci "Ağıllı kənd" layihəsinin təməli qoyulub.

Bütün bunlar azad edilmiş torpaqlarımızda bərpa-quruculuq işlərinin necə sürətlə getdiyini göstərir və onu deməyə

əsas verir ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Qarabağ cənnətə çevriləcəkdir.

**- Dövlətimizin başçısının növbəti on il üçün sosial-iqtisadi inkişafla bağlı müəyyən etdiyi milli prioritetlərdən biri müasir innovasiyalar məkanının yaradılmasıdır. Forumun gündəliyində də olmuş rəqəmsal texnologiyaların hüquq sistemində tətbiqi ilə bağlı görülən işlər barədə nə deyə bilərsiniz?**

- Məşhur kəlamda deyildiyi kimi, "texnologiyalar güclü islahatların mühərrikidir". Buna görə təəccüblü deyil ki, müasir İKT-nin geniş tətbiqi dövlətimizin mühüm prioritetlərindəndir və bu sahə sürətlə inkişaf edir. İnternetin əhatə dairəsinə görə Azərbaycan MDB ölkələri sırasında liderdir.

Cənab Prezidentimizin dövlət başçısı kimi 17 illik fəaliyyəti müasir Azərbaycanın daha da möhkəmlənməsinə, onun iqtisadi və hərbi cəhətdən qüdrətlənməsinə yönələrək bütün sahələrdə davamlı inkişafı, 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbəmizi təmin edib.

Dövlətimizin başçısının qeyd etdiyi kimi, "Bu gün müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünü yaşayır. Çünki Azərbaycan tarixdə heç vaxt bu qədər güclü olmamışdır".

Dünya Bankının "Doing Business" hesabatına görə, ölkəmiz artıq bir neçə ildir ki, 10 ən islahatçı dövlətlərdəndir, Davos İqtisadi Forumunun hesabatına əsasən isə hökumətin dəyişməyə cavabdehliyi, yeni islahatçı obrazı əmsalına görə Azərbaycan dünya miqyasında beşinci yerdədir.

Nüfuzlu beynəlxalq reytinq təşkilatlarının verdiyi yüksək qiymət respublikamızın hərtərəfli və davamlı inkişafını əyani təzahür etdirməklə, uğurlarımızın təməlində dövlətimizin başçısının güclü və qətiyyətli siyasi iradəsi, düşünülmüş və uzaqgörən siyasəti, islahatlara verdiyi müstəsna əhəmiyyət və dəstək dayanır. Eyni zamanda, ölkə rəhbərinin həyata keçirdiyi çoxşaxəli islahatlara dəyərli töhfələr verən Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan çoxsaylı layihələr, həyata keçirilən tədbirlər xüsusi qeyd olunmalıdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın regionda rəqəmsal mərkəzə çevrilməsi istiqamətində ardıcıl islahatlar aparılır, iqtisadiyyatın və dövlət idarəetməsinin səmərəliliyinin, informasiya təhlükəsizliyinin və vətəndaşların yaşayış səviyyəsinin yüksəldilməsi məqsədilə rəqəmsal təşəbbüslər həyata keçirilir, bununla əlaqədar normativ aktlar və dövlət proqramları qəbul olunur. Rəqəmsal cəmiyyət dövlətimizin başçısının bu ilin fevralında təsdiq etdiyi Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən biri kimi müəyyən edilib. Eyni zamanda, müasir telekommunikasiya və rəqəmsal arxitektura quruculuğunun idarə olunması, müxtəlif sahələrdə rəqəmsal xidmətlər və həllər üzrə platformanın inkişafı ilə bağlı işlərin səmərəli əlaqələndirilməsi məqsədilə dövlətimizin başçısı tərəfindən yenicə "Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Fərmanı imzalanıb.

Müasir texnologiyalar cəmiyyət həyatının bütün sahələrinə nüfuz edir və hüquq sahəsi də istisna deyil. BMT-nin Baş katibi Antonio Quterreşin dediyi kimi: "Gələcək qanunun aliliyi texnologiyalar əsasında qurulmalıdır ki, onların köməyi ilə insanların ədalət məhkəməsinə əlçatanlığını asanlaşdırmaq və yeni çağırışlarla ayaqlaşmaq mümkün olsun".

Hüquqi islahatın uğurlu olması üçün, ilk növbədə, onun təməlində sistemli, ardıcıl və elmi cəhətdən əsaslandırılmış hüquq siyasəti durmalıdır.

Bu gün qanunun aliliyinin gücləndirilməsi, insan hüquqlarının qorunması və sair dövlətin hüquq siyasətinin mərkəzində dayanır və bununla bağlı ölkəmizdə mükəmməl qanunvericilik bazası yaradılaraq dinamik inkişaf edir.

Təkcə son 5 il ərzində 4200 qanun və Prezidentin sosial-iqtisadi inkişafa, əhalinin rifahının yaxşılaşmasına dair fərmanı qəbul edilib ki, onların əksəriyyətinin praktiki olaraq işlənib hazırlanmasında Ədliyyə Nazirliyi fəal iştirak edib.

Bundan başqa, nazirlik tərəfindən daim yenilənən və əhali üçün açıq olan qanunvericiliyin elektron bazası yaradılıb. Ötən il bu elektron resursdan əhalimizin demək olar ki, dörddə bir hissəsi istifadə edib.

Bildirməliyəm ki, hüquq siyasətinin həyata keçirilməsində məhkəmə sistemi böyük rol oynayır və əsas prioritetlərdən olan İKT tətbiqi onun səmərəliliyini artırır, ədalət məhkəməsinə əlçatanlığı yaxşılaşdırır. Artıq bu gün bəzi ölkələrdə blokçeyn texnologiyası istifadə

edilir, bəzi işlərə hətta hakimin iştirakı olmadan baxılır.

Azərbaycan zamanla ayaqlaşmağa çalışaraq məhkəmə fəaliyyətinin müasirləşdirilməsinə xüsusi önəm verir.

Bu məqsədlə Prezident İlham Əliyevin rəhbərliyi ilə mütərəqqi islahatlar aparılaraq konseptual baxımdan yeni, ən qabaqcıl İKT ilə təchiz edilmiş məhkəmə infrastrukturu, başqa sözlə, hi-tech məhkəmələr yaradılıb və yeni inşa olunmuş müasir məhkəmə bina və komplekslərinin əksəriyyətinin açılışını məhkəmə hakimiyyətinə müstəsna əhəmiyyət verən dövlətimizin başçısı şəxsən həyata keçirib, görülən işlərlə tanış olub.

Dövlətimizin başçısı, həmçinin hakimlər və ədliyyə işçiləri ilə müşavirə keçirərək məhkəmə fəaliyyətinin müasirləşdirilməsi və bu sahədə mütərəqqi beynəlxalq təcrübənin tətbiqi, qərarların ədalətliliyinin təmin edilməsi, şəffaflığın artırılması, insanlara layiqli xidmət göstərilməsi ilə bağlı və digər konkret tapşırıq və tövsiyələr verib.

Bu məsələdə bizə əhəmiyyətli dəstək göstərən Dünya Bankı ilə sıx əməkdaşlığımız, o cümlədən birgə layihələrin həyata keçirilməsi xüsusi qeyd olunmalıdır.

Dövlətimizin başçısının tapşırığına əsasən "Elektron məhkəmə" informasiya sistemi yaradılaraq hazırda səmərəli tətbiq olunur. Bu sistem məhkəməyə müraciət etmək hüququnun yaranması anından məhkəmə qərarının icrasının tamamlanmasına qədər bütün prosesi əhatə edir, elektron sənəd dövriyyəsini, məhkəmə proseslərinin audio və videoyazısını,




videokonfransların keçirilməsini təmin edir və sənədlərin əldə olunması vaxtını 10 dəfəyə qədər azaldır. Bu məqsədlə məhkəmə sisteminin vahid internet portalı və onun tərkibində "şəxsi elektron kabinet" yaradılıb.

Yeri gəlmişkən, artıq bir neçə ildir ki, kommersiya mübahisələri üzrə icraat yalnız elektron qaydada aparılır. Bu sistemin tətbiqi məhkəməyə əlçatanlığı əhəmiyyətli dərəcədə genişləndirib, süründürməçiliyi nəzərəçarpacaq qədər azaldıb, şəffaflığı və operativliyi təmin edib ki, bu da mülki kateqoriyadan olan məhkəmə işlərinin xeyli çoxaldığı şəraitdə olduqca vacibdir.

"Elektron məhkəmə" artıq bütün məhkəmələrin 2/3-də tətbiq edilir və məqsədimiz onun ölkə üzrə tam təmin olunmasını tezləşdirməkdir.

Məhkəmə fəaliyyətində şəffaflığa xüsusi önəm verilərək, həmçinin bütün məhkəmə qərarlarının elektron dərc olunması təmin edilir və bu zaman şəxsi həyat sirrinin qorunması üçün xüsusi proqramla onlar anonimləşdirilir.

Bundan başqa, məhkəməyə əlçatanlığın asanlaşdırılması məqsədilə kompüterə qoşulmadan məlumatları dərhal əldə etməyə, prosesdə mobil qaydada iştiraka və sairə imkan verən "Mobil məhkəmə" tətbiqi işlənib hazırlanıb və istifadəyə verilib.

Təsadüfi deyil ki, Dünya Bankı Azərbaycanın bu sahədə layihəsini dünyada ən uğurlu hesab edib və göstəricilərimiz "Doing Business 2020" hesabatında öz əksini tapıb.

İnformasiya texnologiyalarının məhkəmə idarəetməsində də rolu az əhəmiyyətli deyil. Bununla bağlı işləyib hazırladığımız sistem elektron statistika əsasında müxtəlif analitik hesabatlar hazırlamağa, məhkəmələrin və hakimlərin fəaliyyətini qiymətləndirməyə, onların işinin məhsuldarlığını müəyyən etməyə imkan verir. Bu sahədə təcrübəmiz beynəlxalq maraq doğuraraq xüsusi mükafata layiq görülüb.

Hazırda məhkəmə fəaliyyətində süni intellektin tətbiqi ilə

bağlı qarşımızda yeni çağırışlar durur. İşlərin əmr icraatında baxılmasının avtomatlaşdırılmış sisteminin uğurlu tətbiqi elektron qaydada verilən iddiaların 24 saat ərzində avtomatik rejimdə həllinə imkan yaradıb və süni intellekt alqoritmi əsasında on minlərlə belə məhkəmə qərarının çıxarılmasına nail olunub.

Süni intellektin tətbiqi sayəsində artıq məhkəmə qətnamələri bəzi kateqoriyalar üzrə ümumiləşdirilir. "Məhkəmə qərarlarının vahid elektron bazası" gələcəkdə yekun qərarların "maşınla hazırlanması"nı təmin etməyə imkan verəcəkdir.

Bununla yanaşı, pandemiya ilə əlaqədar bilavasitə fəaliyyətin məhdudlaşdırılması nəzərə alınaraq qanunvericiliyə operativ olaraq dəyişikliklərin edilməsi məhkəmə işlərinə videokonfrans formatında da baxılmasını mümkün edib.

Bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanının icrası ilə bağlı görülən kompleks tədbirlərin tərkib hissəsidir. Ədliyyə və məhkəmə sisteminin inkişafı üçün mühüm "yol xəritəsi" olan bu Fərman dövlətimizin başçısının cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılmasına, vətəndaşların hüquqlarının məhkəmə müdafiəsinin gücləndirilməsinə, məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmləndirilməsinə verdiyi müstəsna əhəmiyyətin növbəti təzahürüdür.

Eyni zamanda, "Elektron icra" informasiya sisteminin tətbiqi məhkəmə qərarlarının icrasının səmərəsini artırıb, sistem müxtəlif orqanlarla inteqrasiya edilərək zəruri sənədləri, o cümlədən borclunun avtonəqliyyat vasitələrinə, əmək haqqı, pensiya və digər ödənişlərinə, daşınmaz əmlakına və s. şəxsi məlumatlarına dair sənədləri dərhal onlayn qaydada almağa imkan verib. "Elektron icra" sisteminin funksionallığının artırılması üzrə tədbirlər davam etdirilərək vətəndaşlara tərəf olduqları icra işlərinin gedişatını izləmək, görülən icra tədbirləri barədə məlumatları əldə etmək imkanı yaradılacaqdır.

Bununla yanaşı, hamı üçün əlçatan olan ümumi ödəniş terminalları və elektron ədliyyə köşkü vasitəsilə borcu ödəmək mümkündür ki, bu zaman hətta borca görə ölkəni tərk etmək qadağası dərhal, avtomatik aradan qaldırılır.

Digər bir mühüm məsələ cəza siyasətinin humanistləşdirilməsidir. Azərbaycanda dövlət başçısının təşəbbüsü ilə bir neçə il əvvəl bu sahədə qlobal islahatlar başlanılıb və bu gün də davam etməkdədir. Belə ki, cinayət qanunvericiliyinə 500-ə yaxın dəyişiklik edilərək onlarla cinayət əməli dekriminallaşdırılıb, yeni alternativ cəza növləri təsbit olunub və bununla demək olar, hər yeddinci məhkum cəzadan azad edilib və ya cəzası yüngülləşdirilib.

Probasiya xidmətinin yaradılması alternativ cəzaların daha səmərəli icrasına xidmət edib. Rekord bir vaxtda elektron qolbaqların geniş tətbiqinə nail olunub ki, onlara xüsusi Elektron Monitorinq Mərkəzi tərəfindən gecə-gündüz onlayn rejimdə nəzarət edilir.

Eyni zamanda, dövlətimizin başçısının humanist siyasətinin təzahürü olaraq əfvetmə institutu davamlı sürətdə geniş tətbiq edilir. Ötən il pandemiya şəraitində yaşı 65-dən yuxarı olan məhkumların tam əksəriyyəti Azərbaycan Prezidenti tərəfindən əfv olunub. Bu il Novruz bayramı ərəfəsində dövlətimizin başçısının imzaladığı əhatəliyinə görə ən böyük əfvlərindən olan Sərəncamı isə 625 nəfərə şamil olunub, onlardan 475-i azadlığa buraxılıb.

Bununla yanaşı, vaxtından əvvəl şərti azadetmə institutunun tətbiqi də davamlı xarakter alıb və vətəndaş cəmiyyəti bu prosesə fəal qoşularaq xüsusi karantin rejimi şəraitində işlərə videokonfrans formatında baxılması təmin edilib.

**- Fikrət müəllim, ədliyyə sahəsində innovasiyalar barədə də qısa məlumat verməyinizi istərdik.**

- Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ədliyyə sisteminin müasirləşdirilməsi çərçivəsində ədliyyənin bütün sahələrində elektron xidmətlərin, müasir texnologiyaların və innovasiyaların tətbiqinə xüsusi diqqət yetirilir. "Elektron hökumət" sisteminin fəal iştirakçısı olan Ədliyyə Nazirliyi tərəfindən vətəndaşlara 30-dan artıq müxtəlif elektron xidmətlər göstərilir ki, təkcə ötən il bu xidmətlərdən istifadə edənlərin sayı 1,5 milyona çatıb.

Nazirlik tərəfindən yaradılmış innovativ xidmətlərə gəlincə isə hazırda notariat xidmətlərinin məsafədən elektron ədliyyə köşkü vasitəsilə 24 saat onlayn göstərilməsi mümkündür. Notariatın rəqəmsallaş-

masında növbəti addım isə bilavasitə banklarda və sosial xidmətlərdə notariat hərəkətlərinin dərhal yerində rəsmiləşdirilməsi ilə bağlı elektron notariat kabinetlərinin yaradılmasıdır. Eyni xidmətlər, həmçinin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan və böyük sosial əhəmiyyətə malik olan "DOST" mərkəzlərində də göstərilir.

Səyyar xidmətlərə tələbatın artması ilə əlaqədar nazirlik tərəfindən hazırlanmış, "Elektron notariat" informasiya sisteminə və aidiyyəti məlumat resurslarına birbaşa çıxışı olan xüsusi "elektron notariat çantası" vasitəsilə istənilən yerdə hər hansı notariat hərəkətini aparmaq və sənədləri çap edib, təqdim etmək mümkündür.

Bundan başqa, Azərbaycanın məhsulu olan "Mobil notariat" tətbiqi işlənərək hazırlanıb. Bu proqramı telefona yükləməklə vətəndaşın elektron notariat kabineti yaradılır və notariat fəaliyyəti ilə bağlı bütün məlumatlar tətbiqə yüklənir. Onun köməyi ilə istifadəçilər notariat ofisinə getmədən videoəlaqə vasitəsilə müxtəlif növ notariat hərəkətlərini rəsmiləşdirmək imkanına malikdirlər.

Dövlət xidmətlərinin göstərilməsində innovasiyaların tətbiqi ilə vətəndaş-məmur münasibətləri tamamilə yeni səviyyəyə keçib. Bu istiqamətdə inqilabi addım olan "ASAN xidmət"in yaradılmasını xüsusi qeyd etmək istərdim.

Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılaraq ölkəmizin "ixrac edilən" brendinə çevrilmiş və ədliyyənin də mühüm xidmətlər göstərdiyi "ASAN xidmət"in innovativ fəaliyyəti BMT-nin mükafatlarına layiq görülməklə onun təcrübəsinin dünyada yayılması tövsiyə edilib və artıq bir sıra dövlətlər, o cümlədən Özbəkistan Azərbaycanın bu sahədə təcrübəsi ilə yerində tanış olaraq ASAN modelindən bəhrələniblər.

Dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın bu və digər sahələrdə nailiyyətləri Forumda böyük maraq doğurub və iştirakçıların sualları cavablandırılıb.

**- Yeri gəlmişkən, Özbəkistanla ədliyyə sahəsində əməkdaşlıq münasibətləri, Forum çərçivəsində imzalanmış Əməkdaşlıq Proqramı barədə də məlumat maraqlı olardı.**

- Bildirməliyəm ki, Azərbaycan-Özbəkistan dostluq və səmərəli əməkdaşlıq münasibətləri uğurla inkişaf edir və bu əlaqələrin möhkəmlənməsində Prezident İlham Əliyevin və Prezident Şavkat Mirziyoyevin xüsusi rolu vardır.

Xalqlarımızın qardaşlıq əlaqələrinə əsaslanan ikitərəfli münasibətlərimizdə hüquqi əlaqələr də xüsusi yer tutur. İki ölkə arasında geniş müqavilə-hüquq bazası mövcuddur. Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1997-ci ildə Özbəkistana tarixi səfəri zamanı, həmçinin Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair Saziş imzalanıb.

Sazişin implementasiyası çərçivəsində nazirliyin nümayəndə heyətlərinin ikitərəfli səfərləri həyata keçirilib, faydalı təcrübə mübadiləsi aparılıb.

Özbəkistan Ədliyyə Nazirliyinin nümayəndə heyətləri Azərbaycana səfərlər edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan ədliyyə və məhkəmə islahatları, əldə olunan nailiyyətlər və tətbiq edilən rəqəmsal innovasiyalarla, Azərbaycan brendi olan "ASAN xidmət"lə tanış olub, bu sahədə müsbət təcrübəmizdən bəhrələniblər.

COVID-19 qlobal pandemiyasına baxmayaraq, əlaqələrin dərinləşdirilməsi ilə bağlı qarşılıqlı niyyət ifadə olunaraq Azərbaycan və Özbəkistan Ədliyyə nazirlikləri arasında 2021-2022-ci illər üçün Əməkdaşlıq Proqramı işlənərək hazırlanıb və razılaşdırılıb.

Forum çərçivəsində özbəkistanlı həmkarım Ruslanbek Davletovla keçirilmiş videokonfrans formatında ikitərəfli görüş zamanı həmin sənəd tərəfimizdən imzalanıb.

Əməkdaşlıq Proqramı ədliyyə və məhkəmə sistemlərinin, elektron xidmətlərin və rəqəmsal innovasiyaların tətbiqinin öyrənilməsi, qanunvericilik, məhkəmə ekspertizası, qeydiyyat, notariat, hüquqşünasların tədrisi və digər sahələrdə konkret tədbirləri, onların pandemiya şəraitinə uyğun bilavasitə və ya videokonfrans formatında keçirilməsini nəzərdə tutur.

Əminliklə deyə bilərik ki, bu sənəd iki ölkənin ədliyyə orqanları arasında qarşılıqlı fəaliyyətə mühüm töhfə verəcək və hüquqi sahədə təcrübə mübadiləsinin aparılması hər iki tərəf üçün faydalı olacaqdır.

**- Cənab nazir, bizə vaxt ayırdığınıza və dəyərli fikirlərinizlə bölüşdüyünüzə görə bir daha dərin minnətdarlığımızı bildirir, fəaliyyətinizdə uğurlar arzulayırıq.**

# Ölkə Prezidentinin tapşırıqlarının icrası ədliyyə orqanlarının diqqət mərkəzindədir






**Aprelin 30-dа Ədliyyə Nazirliyində video-konfrans formatında kollegiya iclası keçirilib. Kollegiyada ölkə Prezidenti cənab İlham Əliyevin dövlət başçısı kimi 17 illik fəaliyyətinin ümummilli lider Heydər Əliyevin yaratdığı müasir Azərbaycan dövlətinin hərtərəfli inkişafını, xalqımızın böyük qələbəsini təmin etdiyi vurğulanıb.**

Çıxış edən ədliyyə naziri Fikrət Məmmədov dövlət başçısının müəyyən etdiyi inkişaf strategiyasına uyğun olaraq bu illər ərzində respublikamızın iqtisadi, siyasi, hərbi cəhətdən möhkəmləndiyini və regionun lider ölkəsinə çevrildiyini, Vətən müharibəsində Azərbaycan Ordusunun dövlətimizin gücünü, hərb tarixinə düşən və öyrənilən unikal əməliyyatları ilə dünyanın ən güclü 50 ordusundan biri olduğunu nümayiş etdirdiyini qeyd edib.

Bildirib ki, işğaldan azad olunmuş doğma torpaqlarımız ölkə Prezidentinin rəhbərliyi ilə yenidən dirçəlir. Çoxşaxəli islahatlara dəyərli töhfələr verən respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə mühüm layihələr reallaşdırılır.

Dövlət başçısının qeyd etdiyi kimi, bu gün müstəqil Azərbaycan dövləti ən şanlı dövrünü yaşayır. Nüfuzlu beynəlxalq reytinq təşkilatlarının verdiyi yüksək qiymət - ölkəmizin davamlı olaraq 10 ən islahatçı dövlətlərdən olması, hökumətin uzunmüddətli strategiyasına görə 10-cu yerdə qərarlaşması respublikamızın hərtərəfli və davamlı inkişafının əyani təzahürüdür.

Bununla əlaqədar sosial-iqtisadi tərəqqiyə, əhalinin rifahına xidmət edən uzunmüddətli strategiyaların, o cümlədən 2030-cu ilədək milli prioritetlərin, digər dövlət proqramlarının və milli fəaliyyət planlarının müstəsna əhəmiyyəti qeyd olunaraq ölkə həyatının ayrı-ayrı sahələri üzrə tədbirlərin sistemli, ardıcıl və kompleks şəkildə həyata keçirildiyi bildirilib.

Kollegiyada ölkə rəhbərinin 06.03.2021-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası"nın bu sahədə işin təkmilləşdirilməsində, layihələrin hazırlanması ilə bağlı vahid standartların müəyyən edilməsində, məlumatların sistemli toplanılmasında, monitorinq və qiymətləndirmənin daha səmərəli aparılmasında mühüm rolu qeyd edilərək nazirliyə verilmiş tapşırıqların həmin sənədin tələbləri nəzərə alınmaqla vaxtında, dürüst və keyfiyyətlə icrasına nəzarətin gücləndirilməsi tapşırılıb.

Eyni zamanda, açıq hökumətin təşviqi, şəffaflığın və ictimai iştirakçılığın genişləndirilməsi, vətəndaş məmnunluğunun təmin olunması ilə bağlı tədbirlər müzakirə olunub. Bildirilib ki, dövlətimizin başçısı ölkəmizin uğurlu inkişafının təminatında ictimai nəzarətə hər zaman müstəsna əhəmiyyət verir. Bu məqsədlə "İctimai iştirakçılıq haqqında" mühüm Qanun, vətəndaş cəmiyyəti və media ilə səmərəli işin təşkili və bu sahəyə dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı yeni fərmanlar qəbul olunub. Həmçinin ictimaiyyətlə əlaqələr sahəsində işin çevik və səmərəli təşkili məqsədilə vahid kommunikasiya siyasəti həyata keçirilir.

Bununla bağlı müvafiq təlimatlara və tövsiyələrə uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən görülən işlər qeyd olunub, media və vətəndaş cəmiyyəti ilə fəaliyyətin vahid strategiya əsasında həyata keçirilməsi, bu məqsədlə ədliyyə fəaliyyəti üzrə Kommunikasiya Strategiyasının işlənib hazırlanmasına dair tapşırıqlar verilib.

Həmçinin uzun illərdən bəri ictimai iştirakçılığı təmin edən mexanizmlərin təkmilləşdirilməsi ilə bağlı tədbirlər müzakirə olunaraq müvafiq Seçki Komissiyasının yeni tərkibi formalaşdırılıb.

Kollegiyada ölkə başçısının rəhbərliyi ilə ədliyyə orqanlarının inkişafı çərçivəsində nazirliyin tabe qurumlarının, o cümlədən regional ədliyyə idarələrinin fəaliyyətinin müasir çağırışlara uyğun təkmilləşdirilməsi, kadr islahatlarının aparılması, yerli ədliyyə orqanları ilə əlaqəli işin və nəzarətin səmərəliliyinin artırılması, cinayətkarlıqla mübarizədə və ədalət mühakiməsinin həyata keçirilməsində mühüm rol oynayan məhkəmə ekspertizası fəaliyyətinin dövlət başçısının yüksək tələbləri səviyyəsində müasirləşdirilməsi ilə bağlı əlavə tədbirlər müəyyən edilib.

Eyni zamanda, nazirliyin beynəlxalq hüquqi əməkdaşlığına toxunularaq cari ildə ölkəmizin cinayətkarlığa, korrupsiyaya qarşı mübarizəyə, hüquqi sahədə rəqəmsal çağırışlara həsr olunan mötəbər beynəlxalq hüquq forumlarında fəal təmsil olunduğu, Azərbaycan həqiqətlərinin, təcavüzkar Ermənistanın insanlıq əleyhinə və müharibə cinayətlərinin dünya ictimaiyyətinin diqqətinə geniş çatdırıldığı vurğulanıb, bu sahədə ardıcıl tədbirlərin davam etdirilməsi, beynəlxalq hüquqi əməkdaşlığın genişləndirilməsi, o cümlədən Yaponiya ilə ədliyyə sahəsində əməkdaşlıq sənədinin razılaşdırılması, bu ərəfədə Özbəkistanla imzalanmış Əməkdaşlıq Proqramının səmərəli implementasiyası ilə bağlı tapşırıqlar verilib.

Sonda ədliyyə fəaliyyətini tənzimləyən bəzi normativ sənəd layihələrinə baxılaraq təsdiq edilib, vətəndaş cəmiyyətinin inkişafında mühüm rol oynayan bir sıra qeyri-hökumət təşkilatları dövlət qeydiyyatına alınıb.

# Ədliyyə naziri tərəfindən vətəndaşların videoqəbulu keçirilib







**Ölkə Prezidenti İlham Əliyevin vətəndaşların, xüsusilə şəhid ailələrinin və hərbçilərin müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları Ədliyyə Nazirliyi tərəfindən daim diqqətdə saxlanılır, pandemiya şəraiti ilə əlaqədar müraciətlərə elektron qaydada baxılması təmin edilir, mütəmadi videoqəbullar keçirilir.**

Aprelin 14-də ədliyyə naziri Fikrət Məmmədov paytaxtda və müxtəlif bölgələrdə yaşayan vətəndaşları videoformatda qəbul edib.

Videoqəbulda vətəndaşların ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib, qaldırılan məsələlərin, habelə hərbçilərin müraciətlərinin nəzarətə götürülərək araşdırılması və həlli üzrə zəruri tədbirlərin görülməsi üçün aidiyyəti məsul işçilərə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar müraciətlərinə həssaslıqla və diqqətlə yanaşılmasına görə ölkə Prezidentinə minnətdarlıqlarını ifadə edib, qəbulun videoformatda təşkilini məmnunluqla qarşılayıblar.

# Ədliyyə qurumlarının fəaliyyəti təkmilləşdirilir





**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə sisteminin müasirləşdirilməsi çərçivəsində respublikamızın müxtəlif bölgələrində fəaliyyət göstərən regional ədliyyə idarələrinin təkmilləşdirilməsi üzrə ardıcıl tədbirlər görülür.**

Yerli ədliyyə qurumlarının işinin əlaqələndirilməsi və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi, bələdiyyələrə metodiki köməkliyin göstərilməsi və inzibati nəzarət sahəsində, həmçinin nazirliyin digər fəaliyyət istiqamətləri üzrə regional ədliyyə idarələrinin imkanlarının genişləndirilməsi və potensialının artırılması daim diqqətdə saxlanılır, ölkə başçısının kadr islahatlarına uyğun olaraq həmin qurumlar peşəkar, müasir düşüncəli kadrlarla komplektləşdirilir.

Bununla əlaqədar həmin idarələrinin fəaliyyətinin dövlət başçısının tələblərinə uyğun təkmilləşdirilməsi, nazirliyin aidiyyəti struktur və yerli qurumları ilə əlaqəli işin səmərəliliyinin artırılması ilə bağlı görülən işlərə və qarşıda duran vəzifələrə dair əməliyyat müşavirəsi keçirilib.

Videokonfrans formatında keçirilən tədbirdə nazirliyin Təşkilat-nəzarət baş idarəsinin rəisi Elçin Qasımov və bütün regional ədliyyə qurumlarının, o cümlədən yeni təyinat almış rəhbərləri iştirak ediblər.

Müşavirədə çıxış edən ədliyyə nazirinin müavini Vilayət Zahirov ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ədliyyə orqanlarının inkişafı çərçivəsində regional idarələrin fəaliyyətinin təkmilləşdirilməsi üzrə görülən işlərdən danışıb, aparılan islahatlar nəticəsində həmin orqanların statusunun yüksəldiyini, səlahiyyətlərinin genişləndiyini, təcrübəli kadrlarla möhkəmləndiyini, qabaqcıl İKT-lə təchiz olunmaqla infrastrukturunun müasirləşdirildiyini qeyd edib.

Müzəffər Ali Baş Komandanın yenilməz sərkərdəliyi ilə Vətən müharibəsində 30 illik erməni işğalına son qoyularaq azad edilmiş doğma torpaqlarımızda ədliyyə fəaliyyətinin təşkili və yerli qurumların işinin əlaqələndirilməsi məqsədilə Qarabağ regional ədliyyə idarəsinin yaradıldığını vurğulayıb.

Tədbirdə regional ədliyyə idarələrinin fəaliyyət istiqamətlərinə uyğun gördüyü işlərdən bəhs olunub, mövcud problemlər və qarşıda duran vəzifələr, o cümlədən yerli qurumlarla əlaqəli işin səmərəli təşkili, onların fəaliyyətinə effektiv nəzarətin həyata keçirilməsi və əhaliyə göstərilən hüquqi xidmətlərin səviyyəsinin yüksəldilməsi işində fəal iştirak edilməsi, bələdiyyələrin maarifləndirilməsi üzrə tədbirlərin genişləndirilməsi ilə bağlı və digər konkret tapşırıqlar diqqətə çatdırılıb.

Eyni zamanda müəyyən edilmiş vəzifələrin icrası, dövlət başçısının tapşırıqlarına uyğun olaraq vətəndaş məmnunluğunun yüksəldilməsi və onların, xüsusilə şəhid ailələrinin və hərbçilərin müraciətlərinə xüsusi qayğı ilə yanaşılması, əmək və icra intizamına, etik davranış qaydalarına dönmədən əməl edilməsi, şəffaflığın artırılması, vətəndaş-məmur münasibətlərinin sağlam zəmində qurulması, korrupsiya və digər sui-istifadə hallarının yolverilməzliyi vurğulanıb.

Həmçinin nazirliyin Bələdiyyələrlə iş mərkəzinin rəisi Rəhman Məmmədov və rəhbər işçiləri ilə müşavirə keçirilərək bələdiyyələrə göstərilən metodiki köməyin və inzibati nəzarətin gücləndirilməsinə, habelə qanunçuluğun təmin olunması-

na, bələdiyyələrlə iş sahəsində korrupsiyaya şərait yaradan və digər neqativ halların qarşısının alınmasına dair qarşıda duran vəzifələr müzakirə olunub.

Ədliyyə Nazirliyi tərəfindən yaradılmış bələdiyyələrlə iş portalının əhəmiyyəti vurğulanaraq onun müasir İKT-lər tətbiq olunmaqla funksionallığının və əhatəliyinin artırılmasının, bələdiyyələrin internet informasiya resurslarından istifadəsinin genişləndirilməsinin zəruriliyi qeyd olunub.

Bununla yanaşı, regional ədliyyə idarələri ilə əlaqəli işin təkmilləşdirilməsinin, bələdiyyələrin fəaliyyətində şəffaflığın, hesabatlılığın və aşkarlığın təmin edilməsinin, o cümlədən dövlət büdcəsindən ayrılan maliyyə və yerli büdcə vəsaitlərindən qanunauyğun və səmərəli istifadə olunmasının vacibliyi vurğulanıb, konkret tapşırıqlar verilib.

# Notariat fəaliyyəti ilə məşğul olmaq istəyən namizədlərlə test imtahanı

**Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə yeni çağırışlara uyğun aparılan hərtərəfli islahatlar, "smart" şəhər və kənd layihələrinin həyata keçirilməsi, əhaliyə yüksək keyfiyyətli, o cümlədən hüquqi xidmətlərin göstərilməsi, bu sahədə innovasiyaların və rəqəmsal texnologiyaların geniş tətbiqi, həmçinin hazırlıqlı, müasir düşüncəli kadrlara ehtiyacı artırır.**









Bu məqsədlə Ədliyyə Nazirliyi tərəfindən əhaliyə İKT-lər və innovasiyalar, elektron sistemlər və mobil qurğular tətbiq olunmaqla göstərilən notariat xidmətlərinin daim genişləndirilməsi nəzərə alınaraq notariuslar korpusunun qabaqcıl texnologiyalara bələd, bacarıqlı və peşəkar hüquqşünaslarla komplektləşdirilməsi məqsədilə ardıcıl tədbirlər görülür.

Bununla əlaqədar bəzi bölgələrdə notariat fəaliyyəti ilə məşğul olmaq istəyən namizədlərlə elan olunmuş müsabiqə üzrə aprel ayının 13-də növbəti test imtahanı keçirilib.

Pandemiya ilə əlaqədar tətbiq olunan xüsusi karantin rejiminin tələblərinə ciddi əməl edilməklə Dövlət İmtahan Mərkəzi ilə birlikdə namizədlərlə fərdi qaydada, müasir texnologiyalar tətbiq olunmaqla keçirilmiş test imtahanını vətəndaş cəmiyyətinin nümayəndələri izləyiblər.

İmtahanın keçirilməsi qaydalarına uyğun olaraq, test imtahanında namizədin hüquqi biliklərini, məntiqi nəticələr çıxarmaq qabiliyyətini və ümumi dünyagörüşünü müəyyən etmək üçün verilən test tapşırığı 100 sualdan ibarət olub.

53 nəfərin iştirak etdiyi imtahanın nəticələrinə dair namizədlərə yerindəcə arayış təqdim olunub və yekuna görə mümkün 90 baldan 55 və ya daha artıq bal toplayan 28 nəfər müvəffəqiyyət qazanıb. Uğur qazanmış namizədlərin siyahısı nazirliyin (www.justice.gov.az)

və DİM-in (www.dim.gov.az) internet səhifələrində yerləşdirilib.

Bildirilir ki, qanunvericiliyin tələblərinə əsasən test imtahanında zəruri keçid balını toplamış hüquqşünaslar ikinci mərhələyə - müsahibəyə buraxılır və onlarla fərdi qaydada söhbət aparılacaqdır. Müsahibənin keçirilmə vaxtı və yeri barədə məlumat veriləcəkdir.

Əlavə informasiyanı nazirliyin internet səhifəsindən, habelə (012) 404-42-19, (012) 404-42-29 nömrəli əlaqə telefonları vasitəsilə əldə etmək mümkündür.

# Hakimliyə namizədlərlə yazılı imtahan keçirilib

**Ölkə Prezidenti cənab İlham Əliyevin ədalət mühakiməsinin səmərəliliyinin artırılması ilə bağlı tövsiyə və tapşırıqları üzrə görülən tədbirlər çərçivəsində hakim vəzifəsinə namizədlərin tam şəffaf şəraitdə və obyektiv meyarlar əsasında seçimi aparılır.**

Çoxmərhələli seçim prosesini, o cümlədən Ədliyyə Akademiyasında yarım illik tədris və məhkəmələrdə təcrübəni uğurla başa vurmuş 44 nəfər hazırlıqlı hüquqşünas ciri ilin fevral ayında müxtəlif birinci instansiya məhkəmələrinə hakim təyin ediliblər. Test və yazılı imtahanlarda uğur qazanmış daha 64 nəfər namizədlə isə hazırda Hakimlərin Seçki Komitəsi tərəfindən şifahi imtahanlar keçirilir.

Həmçinin, hakimliyə namizədlərin seçim prosesi davamlı xarakter alaraq sənədlərini təqdim etmiş 230-dək namizədlə ötən ay test imtahanı keçirilib. Suallar müasir texnologiyalar tətbiq edilməklə, fərdi qaydada, kompüter vasitəsilə cavablandırılıb, hər bir namizədin nəticələri ona dərhal elan olunub. 60 və daha artıq bal toplamış 157 nəfər namizəd növbəti mərhələyə - yazılı imtahana buraxılıb.

Aprel ayının 9-da Dövlət İmtahan Mərkəzində həmin namizədlərlə yazılı imtahan keçirilib.





İmtahandan əvvəl Hakimlərin Seçki Komitəsi həmin binada, qapalı iclasında imtahanda istifadə edilməsi üçün cinayət və mülki sahələr üzrə kazus xarakterli suallar hazırlayıb və onlar dərhal imtahan zalına gətirilib. Namizədlər həmin suallar sırasından, təsadüfi yolla biri cinayət, biri isə mülki sahəyə aid suallar seçiblər.

4 saat davam edən imtahanda hakimliyə namizədlərə həmin sualları cavablandırmaqla, kazusları həll etmək, qoyulmuş məsələlərə düzgün qiymət vermək, qanunun məzmununu dolğun açmaqla onun səlist izahını vermək bacarıqlarını nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

İmtahan prosesi müşahidəçilər tərəfindən şəffaf prosedur kimi yüksək dəyərləndirilib.

Cavab vərəqələri tam anonimləşdirildikdən sonra ikiqat yoxlama üsulu ilə qiymətləndirilməklə nəticələr elan olunacaqdır.

Eyni zamanda Hakimlərin Seçki Komitəsi bildirir ki, hakimliyə namizədlərin sənədlərinin qəbulu davam edir və hakim olmaq arzusunda olan hüquqşünaslar müsabiqəyə dəvət olunurlar.

# Ədliyyə işçiləri Hərbi Qənimətlər Parkı ilə tanış olublar




**Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Hərbi Qənimətlər Parkı 44 günlük Vətən müharibəsində xalqımızın parlaq Zəfərinin və ordumuzun qəhrəmanlığının təcəssümü olaraq hər bir azərbaycanlıda yüksək qürur və iftixar hissləri yaşadır.**



Aprelin 15-də ədliyyə işçiləri pandemiya ilə əlaqədar xüsusi karantin rejiminin tələbləri ciddi gözlənilməklə Hərbi Qənimətlər Parkını ziyarət ediblər.

Nazirliyin kollektivi açıq səma altında salınan parkda Qarabağ uğrunda gedən döyüşlərdə Azərbaycan Ordusu tərəfindən düşməndən qənimət götürülmüş hərbi texnikalar və maşınlar, silah-sursat, raket kompleksləri və onların, o cümlədən Şuşaya atılmış "İskəndər M" raketinin qalıqları, həmçinin Ermənistana məxsus 2000-dən çox avtomobilin nömrə nişanından hazırlanan lövhə ilə tanış olub, mühəndis-maneə sistemini, döyüş postunu və əsgər kazarmasını ehtiva edən ərazini gəziblər.

Parkda videozalda nümayiş etdirilən Vətən müharibəsində Azərbaycan Prezidentinin Qələbə tvitləri, aparıcı media qurumlarına müsahibələr, xalqa müraciətlərdən ibarət hissələrlə, habelə Ermənistanın dinc yaşayış məntəqələrinə və mülki əhaliyə qarşı raket zərbələri endirməklə törətdiyi insanlıq əleyhinə və müharibə cinayətləri barədə faktları xronoloji ardıcıllıqla özündə əks etdirən lövhə ilə tanışlıq əməkdaşlar tərəfindən böyük maraqla qarşılanıb.

Hərbi Qənimətlər Parkından xoş və zəngin təəssüratla ayrılan ədliyyə işçiləri xalqımıza Qələbə sevinci bəxş edən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə sonsuz minnətdarlıqlarını ifadə ediblər.

# Ədliyyə işçiləri və könüllüləri "Yaşıl Marafon" kampaniyası çərçivəsində ağacəkmə aksiyasına qoşulublar




**Ölkə Prezidenti cənab İlham Əliyevin ətraf mühitin mühafizəsi, yeni yaşıllıq sahələrinin salınması ilə bağlı tapşırıqlarına uyğun olaraq ardıcıl tədbirlər görülür, bu məqsədlə ənənəvi olaraq ağacəkmə aksiyaları keçirilir.**

Respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondu tərəfindən bu sahədə mühüm layihələrin təşviqi xüsusi qeyd olunmalıdır.

IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Ümumrespublika Yaşıllaşdırma Marafonu" ("Yaşıl Marafon") layihəsi çərçivəsində növbəti ağacəkmə aksiyasına Ədliyyə Nazirliyi də qoşulub.



Ədliyyə və Ekologiya və Təbii Sərvətlər nazirliklərinin əməkdaşlarının, IDEA və "Ədliyyə könüllüləri" ictimai birliklərinin üzvlərinin iştirakı ilə Bakının Binəqədi rayonunun Xocasən qəsəbəsində 1 hektar ərazidə 1.000-dək şam və zeytun ağacları əkilib.

# Cinayətkarlıqla mübarizədə səmərəli beynəlxalq əməkdaşlıq həyata keçirilir

**Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə cinayətkarlığın qarşısının alınması üzrə qəti tədbirlər görülərək bu sahədə beynəlxalq əməkdaşlığa mühüm əhəmiyyət verilir. Müxtəlif dövlətlərlə ikitərəfli sazişlər və müqavilələr, Avropa, habelə MDB çərçivəsində çoxtərəfli konvensiyalar üzrə ekstradisiya və digər sahələrdə səmərəli qarşılıqlı fəaliyyət həyata keçirilir.**



Ədliyyə Nazirliyi tərəfindən qlobal pandemiya əlaqədar ekstradisiya sorğularının elektron qaydada qəbul olunması və baxılması təmin edilir. Ötən il beynəlxalq axtarışda olan adam oğurluğu, dələduzluq və rəsmi sənədlərin saxtalaşdırılması kimi cinayət əməllərində təqsirləndirilən şəxslərin Almaniya, Bosniya və Herseqovina, Türkiyə, Əlcəzair və s. dövlətlərdən ölkəmizə ekstradisiyasına nail olunub.

Bu gün isə xarici dövlətlərdə qanunsuz yollarla siyasi sığınacaq əldə etmək məqsədilə həmin ölkələrin aidiyyəti qurumlarını aldadaraq rəsmi sənədlərin saxtalaşdırılması kimi cinayət əməllərində təqsirləndirilən Azərbaycan vətəndaşının Almaniyadan ekstradisiyası təmin edilərək, o, nazirliyin əməkdaşların müşayiəti ilə ölkəmizə gətirilib.

Cinayətkar şəxslər Azərbaycana gətirilərkən tranzit dövlətlərin razılığının alınması üçün nazirlik tərəfindən qısa müddətdə zəruri tədbirlər görülür. Bu baxımdan qardaş Türkiyənin ölkəmizə böyük dəstəyi xüsusi qeyd olunmalıdır.

Ümumilikdə ötən 5 il ərzində 200 nəfərdən çox cinayətkar şəxslərin Azərbaycana ekstradisiyası təmin olunub.

Bununla da cəzanın labüdlüyü prinsipi təmin edilməklə cinayətkarların özlərini heç yerdə azad və təhlükəsizlikdə hiss etmələrinin qarşısı alınır.

Nazirlik tərəfindən bu sahədə lazımi tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

# Yerli özünüidarəetmənin inkişaf perspektivlərinə dair videokonfrans

**Aprelin 28-də Milli Məclisin Regional məsələlər komitəsinin və Şəhər, Qəsəbə və Kənd Bələdiyyələrinin Milli Assosiasiyalarının birgə təşkilatçılığı ilə "Azərbaycanda yerli özünüidarəetmənin inkişaf perspektivləri: mövcud vəziyyət və qarşıdakı vəzifələr" mövzusunda videokonfrans keçirilib.**

Tədbirdə Regional məsələlər komitəsinin üzvləri, Ədliyyə Nazirliyi Bələdiyyələrlə İş Mərkəzinin, Bələdiyyə İşçiləri Həmkarlar Komitəsinin, Bələdiyyələrin Milli Assosiasiyalarının rəhbərliyi və nümayəndələri, həmçinin 55 şəhər, qəsəbə və kənd bələdiyyəsinin sədrləri




iştirak ediblər.

Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə yerli özünüidarəetmə institutunun və onun hüquqi bazasının yaradılması, həmçinin bələdiyyələrin inkişaf yolu haqqında danışıb. Qeyd edib ki, Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin müdrik siyasəti və qəti iradəsi ilə, qüdrətli Azərbaycan Ordusunun qəhrəmanlığı və xalqımızın həmrəyliyi sayəsində işğaldan azad edilmiş ərazilərimizin bərpası mərhələsi başlayıb və bu mərhələdə bələdiyyələrin də üzərinə mühüm vəzifələr düşür.

Tədbirdə bələdiyyələrin fəaliyyətinin təkmilləşməsi, yerli sosial-iqtisadi məsələlərin həllində rolunun artması, həmçinin bələdiyyələrin qarşılaşdıqları aktual problemlər, həlli yolları, o cümlədən yerli özünüidarəetmənin inkişaf perspektivləri ətrafında müzakirələr aparılıb.

Çıxış edən Bələdiyyələrlə iş mərkəzinin rəisi Rəhman Məmmədov ölkəmizdə aparılan hərtərəfli quruculuq işlərində, o cümlədən sosial, iqtisadi, ekoloji və digər layihələrin reallaşmasında yerli özünüidarəetmə orqanlarının rolunu vurğulayaraq, bələdiyyələrin fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində onlara kömək məqsədilə Ədliyyə Nazirliyi tərəfindən görülən işlər barədə ətraflı məlumat verib.

Müzakirələr zamanı yerli özünüidarəetməyə ictimai etimadın artırılması məqsədilə bələdiyyə-vətəndaş münasibətlərinin düzgün qurulması, yerli əhali ilə sıx təmasların formalaşdırılması, bələdiyyələr tərəfindən görülən işlər barədə ictimaiyyətin mütəmadi məlumatlandırılmasının zəruriliyi diqqətə çatdırılıb.

Tədbirdə səsləndirilən problemlər və digər məsələlərin operativ və səmərəli həlli məqsədilə aidiyyəti dövlət orqanlarının, o cümlədən bələdiyyə nümayəndələrindən ibarət tərkibdə Milli Məclisin Regional məsələlər komitəsinin rəhbərliyi ilə işçi qrupun yaradılması məsələsi də gündəmə gətirilib, bu istiqamətdə zəruri addımlar atılacağı bildirilib.

Konfransın yekununda bir sıra bələdiyyə sədrləri qarşılaşdıqları problemləri diqqətə çatdıraraq, həlli yolları ilə bağlı təkliflərlə çıxış ediblər.

# Probasiya fəaliyyətinə dair onlayn brifinq

**Aprelin 14-də Ədliyyə Nazirliyi tərəfindən "Probasiya fəaliyyətində elektron nəzarət vasitələri və onların tətbiqi" mövzusunda onlayn brifinq keçirilib.**

Brifinqdə iştirak edən Probasiya Xidmətinin Elektron monitorinq idarəsinin rəisi Nəvai Əlizadə probasiya fəaliyyəti, bu sahədə yeni innovasiyaların tətbiqi barədə ətraflı məlumat verib.

Bildirilib ki, Prezident İlham Əliyevin cəza siyasətinin humanistləşdirilməsinə dair 2017-ci il 10 fevral tarixli Sərəncamına əsasən ölkəmizdə azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasında elektron nəzarət vasitələri geniş tətbiq olunur. Ötən dövrdə ümumilikdə 6.500-dən artıq şəxsə elektron nəzarət vasitələri tətbiq olunub ki, onlardan böyük əksəriyyətini azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslər təşkil edir.

Elektron nəzarət vasitələri tətbiq edilən məhkumların 24 saat ərzində fasiləsiz izlənilməsini təmin etmək məqsədilə Probasiya Xidmətində Monitorinq Mərkəzi fəaliyyət göstərir.

Diqqətə çatdırılıb ki, elektron nəzarət vasitələri məhkumun məsafədən izlənməsini həyata keçirməklə, fasiləsiz olaraq məhkəmə tərəfindən məhkumun üzərinə qoyulmuş vəzifələrin yerin yetirilməsinə effektiv nəzarəti təmin edir, məhkumların islah olunması və yeni cinayət törətmələrinin qarşısının alınmasına əlverişli zəmin yaradır.

Eyni zamanda, "Azərbaycan ədliyyəsinin inkişafına dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nın icrası çərçivəsində azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaların səmərəli icrası məqsədilə elektron nəzarət vasitələrinin tətbiqinin genişləndirilməsi, ictimai işlər növündə cəzanın və inzibati tənbehin icrası prosesində həmin nəzarət vasitələrindən istifadə



olunması üçün Cinayət, Cəzaların İcrası, İnzibati Xətalar məcəllələrinə dəyişikliklər edilib. Həmin dəyişikliklər ictimai işlər növündə cəzanın və inzibati tənbehin icrasına həyata keçirilən nəzarətin səmərəliyinin artmasına əlverişli zəmin yaratmaqla, ictimai işlər təyin edilmiş şəxslərin iş saatlarının elektron qaydada hesablanmasına və onların işlərin getdiyi yerlərə vaxtında gəlib-getmələrinə nəzarətin gücləndirilməsinə yönəlib.

Bununla yanaşı, elektron nəzarət vasitələrinin tətbiqi ictimai işlər növündə cəzanın və inzibati tənbehin icrası prosesində insan amilinin, yəni yol verilə biləcək sui-istifadə hallarının aradan qaldırılmasının təmin edilməsi vəzifəsini də yerinə yetirir.

Məlumat verilib ki, qanunvericiliyə dəyişikliklərlə bağlı ictimai işlər növündə cəzanın və inzibati tənbehin icrası prosesində elektron nəzarət vasitələrindən istifadə olunması qaydaları təsdiq olunub. Ötən qısa müddətdə ictimai işlərə cəlb olunmuş 45 məhkum və inzibati tənbeh tətbiq olunmuş şəxsə elektron nəzarət vasitəsi tətbiq edilib.

Hazırda Monitorinq Mərkəzində 2.900-dən çox şəxs üzərində elektron nəzarət həyata keçirilir.

Onlayn tədbirdə sosial şəbəkə istifadəçilərini maraqlandıran suallar da cavablandırılıb.

"İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı və 15-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1704-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

"İcra haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, N 3, maddə 114; 2003, N 6, maddə 277; 2004, N 8, maddə 598, N 11, maddə 901, N 12, maddə 973; 2007, N 1, maddə 3, N 6, maddə 562, N 11, maddə 1053; 2008, N 6, maddə 462, N 7, maddə 602; 2009, N 12, maddə 952; 2010, N 2, maddə 75, N 7, maddə 591; 2011, N 6, maddə 482, N 7, maddə 618; 2012, N 11, maddə 1052; 2013, N 6, maddə 613, N 7, maddə 787, N 12, maddə 1494; 2015, N 12, maddə 1434; 2016, N 12, maddə 2050; 2017, N 2, maddə 156, N 6, maddə 1056, N 8, maddə 1511; 2018, N 2, maddə 151, N 5, maddələr 853, 867, N 7 (I kitab), maddə 1424, N 8, maddə 1674, N 12 (I kitab), maddə 2528; 2019, N 1, maddə 21, N 2, maddə 203, N 6, maddə 999; 2020, N 7, maddələr 828, 856) aşağıdakı məzmunda 20.1.4-2-ci maddə əlavə edilsin.

"20.1.4-2. qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə təmin edilmiş vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının (məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları istisna olmaqla) dövlət büdcəsinə alınması barədə məhkəmə qərarının qüvvəyə mindiyi tarixdən 5 illik müddət keçdikdə;".

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 13 aprel 2021-ci il*
*N 292-VIQD*

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 142-ci maddəsinin həmin Məcəllənin 56-cı maddəsinin tətbiqi baxımından şərh olunmasına dair

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva (məruzəçi-hakim), Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Sumqayıt

Şəhər Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 142-ci maddəsinin həmin Məcəllənin 56-cı maddəsinin tətbiqi baxımından şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim H.Əfəndiyevanın məruzəsini, maraqlı subyektlərin nümayəndələri Sumqayıt Şəhər Məhkəməsinin hakimi P.Hacıyevin və Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin İnzibati qanunvericilik sektorunun müdiri K.Paşayevanın, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri H.Nəsibovun, Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının hakimi R.Abdulovun və Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəisi O.İsayevin mülahizələrini, ekspertlər Bakı Dövlət Universitetinin Cinayət hüququ və kriminologiya kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru M.Bayramovanın və Milli Aviasiya Akademiyasının Hüquq kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru A.Rüstəmzadənin rəylərini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Sumqayıt Şəhər Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra - Cinayət Məcəlləsi) 142-ci maddəsinin həmin Məcəllənin 56-cı maddəsinin tətbiqi baxımından şərh edilməsini xahiş etmişdir.

Müraciətdə qeyd olunur ki, məhkəmənin icraatında olan cinayət işinin materiallarına görə, T.Mustafayev (həkim neyrocərrah) və R.Hacıyeva (həkim terapevt) 14 fevral 2020-ci il tarixində Sumqayıt şəhər Təcili Tibbi Yardım Xəstəxanasında növbədə olarkən, saat 19:25-də qəbul şöbəsinə multipli qıcolma ilə müşayiət olunan epileptik statusla daxil olmuş xəstəyə qanunvericiliyə və xüsusi qaydalara müvafiq olaraq kömək etməyə borclu olduqları halda, üzrlü səbəblər olmadan onun vəziyyətini düzgün qiymətləndirməmiş, zərurətlə bağlı diaqnozun təyin edilməsi üçün müvafiq müayinə planı verməmiş və qüsurlu tibbi xidmət göstərmələri nəticəsində xəstənin kəskin işemik xəstəliyindən baş vermiş miokard infarktından ölümünə səbəb olmuşlar.

Hər iki tibb işçisi Cinayət Məcəlləsinin 142.3-cü maddəsi ilə təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb olunmuşlar.

Cinayət Məcəlləsinin 142.3-cü maddəsinə əsasən, qanunvericiliyə və ya xüsusi qaydalara müvafiq olaraq xəstəyə kömək etməyə borclu olan tibb işçisi tərəfindən üzrlü səbəblər olmadan xəstəyə tibbi yardım göstərilməməsi zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Müraciətedən hesab edir ki, Cinayət Məcəlləsinin 142-ci maddəsinin dispozisiyası cinayətin subyektiv cəhətinin müəyyən edilməsində qeyri-müəyyənliyə səbəb olur. Belə ki, şəxsin törətdiyi ictimai təhlükəli əmələ (hərəkət və ya hərəkətsizliyə) və onun nəticələrinə psixi münasibəti olmaqla, əqli və iradəvi elementlərin müxtəlif birləşmələrindən asılı olaraq təqsirin qəsd və ehtiyatsızlıq kimi iki forması fərqləndirilir.

Müraciətedənin qənaətinə görə, Cinayət Məcəlləsinin 142-ci maddəsinin mətnindən belə bir nəticəyə gəlmək olar ki, qeyd olunan cinayət tərkibinin subyektiv cəhəti təqsirin qarışıq formasını nəzərdə tutmaqla, tibb işçisinin xəstəyə kömək göstərməməsindən ibarət hərəkətsizliyinə psixi münasibəti birbaşa qəsddə, baş vermiş nəticəyə, yəni şəxsin ölümünə psixi münasibəti isə ehtiyatsızlıqda ifadə olunur. Bu baxımdan cinayətin subyektiv cəhətinin müəyyən edilməsi həmin əmələ görə azadlıqdan məhrum etmə cəzasının təyini ilə əlaqədar cəzaçəkmə müəssisəsinin növünün müəyyən edilməsində xüsusi əhəmiyyət kəsb edir.

Belə ki, Cinayət Məcəllənin 56.1-ci maddəsində azadlıqdan məhrum etmə cəzasının çəkilməsi ilə bağlı cəzaçəkmə müəssisələrinin növünün müəyyən edilməsi üçün məhkəmənin mülahizələrinin hədləri məhdudlaşdırılaraq təqsirin forması (cinayətin qəsdən və ya

ehtiyatsızlıqdan törədilməsi), əvvəllər azadlıqdan məhrum etmə növündə cəzanın çəkilməsi, törədilmiş cinayətin kateqoriyası və təyin edilmiş cəzanın müddəti kimi meyarlar təsbit edilmişdir.

Qeyd olunanlara əsasən müraciətedən Cinayət Məcəlləsinin 142.3-cü maddəsində nəzərdə tutulan əmələ görə azadlıqdan məhrum etmə cəzası təyin edilərkən cəzaçəkmə müəssisəsinin növünün müəyyən edilməsi baxımından həmin maddənin şərh edilməsini xahiş etmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı aşağıdakıların qeyd olunmasını vacib hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 41-ci maddəsinə uyğun olaraq, hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır.

"İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktın 12-ci maddəsinə əsasən, bu Paktda iştirak edən dövlətlər hər bir şəxsin fiziki və psixi sağlamlığının ən yüksək səviyyəsinə çatmaq hüququnu tanıyırlar. Bu Paktda iştirak edən dövlətlərin bu hüququ tam həyata keçirmək üçün görməli olduğu tədbirlər sırasına xəstəlik təqdirində hamı üçün tibbi yardımın və tibbi xidmətin təmin olunması üçün şəraitin yaradılması məqsədilə atılan addımlar daxildir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin *Calvelli və Ciglio İtaliyaya qarşı iş üzrə* 2002-ci il 17 yanvar tarixli Qərarında formalaşdırdığı hüquqi mövqeyə əsasən, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın əsas müddəalarından və demokratik cəmiyyətlərin əsas dəyərlərindən biri olan 2-ci maddəsinin birinci cümləsi (Hər kəsin yaşamaq hüququ qanunla qorunur) dövlətlərin üzərinə nəinki insan həyatını "qəsdən almamaq" öhdəliyini qoyur, eyni zamanda həyatın qorunması üçün lazımi tədbirlərin görülməsini nəzərdə tutur. Bu prinsiplər səhiyyə sahəsində də tətbiq edilir. Beləliklə, göstərilən pozitiv öhdəliklər dövlətlərdən, dövlət və ya qeyri-dövlət tibb müəssisələri tərəfindən pasientlərin həyatının qorunması üçün lazımi tədbirlərin görülməsinə dair müvafiq qaydaların qəbul edilməsini tələb edir. Habelə bu öhdəliklər, tibb işçilərinin nəzarəti altında olan şəxslərin ölümünün səbəblərini müəyyən və təqsirli şəxsləri məsuliyyətə cəlb edə biləcək müstəqil və səmərəli ədalət mühakiməsinin həyata keçirilməsini tələb edir.

Konstitusiya və beynəlxalq hüquqi aktlarda təsbit olunmuş bu prinsiplər daha geniş "Əhalinin sağlamlığının qorunması" haqqında Azərbaycan Respublikasının Qanununda öz əksini tapmışdır.

Həmin Qanunun 1-ci maddəsinə əsasən, əhalinin sağlamlığının qorunması sahəsində insan və vətəndaş hüquqlarına dövlət təminatı və bu təminatla bağlı hüquqi və fiziki şəxslərin məsuliyyəti, tibbi-sosial yardımın hamı üçün mümkünlüyü əhalinin sağlamlığının qorunmasının əsas prinsiplərindəndir.

Qanunun 59-cu maddəsinə uyğun olaraq, tibb və əczaçılıq işçiləri öz peşə vəzifələrini lazımi səviyyədə yerinə yetirmədikdə, sağlamlığın qorunması sahəsində vətəndaşların hüquqlarının pozulması hallarında qanuna uyğun olaraq məsuliyyət daşıyırlar.

Əhalinin sağlamlığının qorunması sahəsində xüsusi ictimai münasibətlər qeyd edilən Qanun və digər normativ hüquqi aktlarla tənzimlənir və müvafiq qaydaların pozulması nəticəsindən asılı olaraq mülki, inzibati və cinayət məsuliyyətinə səbəb olur.

Bu sahədə müvafiq məsuliyyətə səbəb olan əməllərdən biri də, tibb işçisi tərəfindən üzrlü səbəblər olmadan xəstəyə tibbi yardım göstərilməməsinin qanunvericiliklə müəyyən edilmiş nəticələrə səbəb olmasıdır. Belə ki, Cinayət Məcəlləsinin 142-ci maddəsi ilə qanunvericiliyə və ya xüsusi qaydalara müvafiq olaraq xəstəyə kömək etməyə borclu olan tibb işçisi tərəfindən üzrlü səbəblər olmadan xəstəyə tibbi yardım göstərilməməsi nəticəsində onun sağlamlığına az ağır, ağır zərər vurmağa, həmçinin ölümünə səbəb olmağa görə cinayət məsuliyyəti müəyyən edilmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, müraciətdə qaldırılan məsələnin həlli üçün, ilk növbədə, Cinayət Məcəlləsinin 142-ci maddəsində nəzərdə tutulmuş cinayət əməlinin ictimai təhlükəliliyi və onun tərkib əlamətləri nəzərdən keçirilməlidir.

Konstitusiya Məhkəməsi Plenumunun formalaşdırdığı

hüquqi mövqeyə görə, hər bir cinayət əməli araşdırılarkən onun tərkibinin düzgün müəyyən edilməsi və düzgün tövsif edilməsi cinayət əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmamasını, cinayət törətməkdə təqsirləndirilən şəxsin təqsiri olub-olmamasını müəyyənləşdirməyə, habelə həmin cinayətə görə təqsirləndirilən şəxsə ədalətli cəza təyin edilməsinə yönəlmişdir. Əks hal təqsiri olmayan şəxsin məsuliyyətə alınmasına, yaxud da cinayət törətməkdə təqsirli olan şəxsin məsuliyyətdən kənarda qalmasına, cəzanın düzgün olmayan tətbiqinə səbəb ola bilər ("Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 244.1-ci maddəsinin şərh edilməsinə dair" 2011-ci il 17 mart tarixli Qərar).

Cinayət Məcəlləsinin 142-ci maddəsində göstərilən əməlin ictimai təhlükəliliyi tibb işçisinin öz vəzifəsini icra etməməsi nəticəsində tibbi yardıma ehtiyacı olan şəxsin həyatı və sağlamlığı üçün təhlükə yaranmasından ibarətdir.

Həmin maddənin obyektini insan sağlamlığının və həyatının təhlükəsizliyini təmin edən ictimai münasibətlər təşkil edir. Bu cinayətin obyektiv cəhəti tibb işçisinin qanunvericiliyə və ya xüsusi qaydalara uyğun olaraq xəstəyə kömək göstərmək vəzifəsinin mövcudluğunu; zərərçəkmiş şəxsin tibbi yardıma ehtiyacının olmasını; tibb işçisinin üzrlü səbəblər olmadan xəstəyə tibbi yardım göstərməməsini; zərərçəkmiş şəxsin sağlamlığına zərər vurulması və ya onun ölümünü; tibb işçisinin hərəkətsizliyi ilə zərərçəkmişin sağlamlığına zərər vurulması və ya onun ölümü arasında səbəbli əlaqənin mövcudluğunu ehtiva edir.

Qeyd edilməlidir ki, bu əmələ görə cinayət məsuliyyətinin yaranması üçün tibb işçisinin xəstəyə kömək göstərmək imkanı olmalıdır. Cinayət hüquq nəzəriyyəsində belə imkanı məhdudlaşdıran müxtəlif səbəblər göstərilmişdir. Məsələn, subyektiv və obyektiv xarakterli hallar (həkimin dar ixtisasa sahib olması, həkimin özünün səhhətində problemlərin yaranması və s.); vəzifələrin rəqabəti (bir neçə xəstənin eyni zamanda köməyə ehtiyacının olması); müxtəlif mənşəli kütləvi aksiyalar (mitinq, küçə yürüşü və s.); təbii və texnogen hadisələr (zəlzələ, tufan və s.).

Bu cinayətin subyekti tibbi yardım göstərməyə borclu olan tibb işçisidir. Məhz bu məqam, yəni cinayətin xüsusi subyektinin olması, bu subyektin xüsusi bilik, bacarıq və təcrübəyə sahib olması və bundan irəli gələrək öz hərəkətsizliyinin nəticələrini qabaqcadan təxmin edə bilməsi hüquq tətbiqetmədə bu cinayətin subyektiv cəhətinin müəyyən edilməsində suallar yaradır.

Göstərilən məsələyə aydınlıq gətirilməsi məqsədi ilə Konstitusiya Məhkəməsinin Plenumu cinayətin subyektiv cəhətinin əsas əlaməti olan təqsir anlayışını təhlil etməyi zəruri hesab edir.

Təqsir dedikdə, şəxsin törətdiyi ictimai təhlükəli əmələ və onun nəticələrinə qəsd və ya ehtiyatsızlıq formasında psixi münasibəti nəzərdə tutulur. Təqsirsizlik prezumpsiyası və təqsirə görə məsuliyyət prinsipləri ilə təqsir cinayət tərkibinin mütləq elementi kimi təsbit edilir və şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinin əsasını təşkil edir. Belə ki, Cinayət Məcəlləsinin 7-ci maddəsinə uyğun olaraq, yalnız törətdiyi ictimai təhlükəli əmələ (hərəkət və ya hərəkətsizliyə) və onun nəticələrinə görə təqsiri müəyyən olunmuş şəxs cinayət məsuliyyətinə cəlb edilə və cəzalandırıla bilər. Şəxs təqsirsiz olaraq vurduğu zərərə görə cinayət məsuliyyətinə cəlb oluna bilməz.

Təqsir şüur və iradə kimi psixoloji elementlərin məcmusudur və bu elementlər müvafiq olaraq ictimai təhlükəli davranışın əqli və iradəvi tərəflərini təşkil edir. Əqli meyar ondan ibarətdir ki, təqsirli şəxs əməlin ictimai təhlükəliliyini və belə əməlin törədəcəyi ictimai təhlükəli nəticələri dərk edir. İradi element cinayətin subyektinin şüurunda baş verən iradəvi proseslərlə səciyyələnir: şəxs ictimai təhlükəli nəticələrin baş verməsini arzu edir və ya şüurlu surətdə onlara yol verir, yaxud yüngül fikirliliklə ictimai təhlükəli nəticələrin qarşısının alınmasına ümid edir.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, cinayət qanunvericiliyində təqsirin forması bilavasitə Məcəllənin Xüsusi hissəsindəki normanın dispozisiyasında nəzərdə tutula və ya normanın mətninin şərh edilməsi yolu ilə müəyyən edilə bilər.

Təqsirin formasının müəyyən edilməsi - yalnız qəsdən törədilmiş əməllərin cinayət məsuliyyətinə səbəb olduğu

hallarda müvafiq məsuliyətin yaranıb-yaranmaması (Cinayət Məcəlləsinin 128-ci maddəsi), obyektiv cəhətdən oxşar cinayətlərin fərqləndirilməsi (əməlin Cinayət Məcəlləsinin 186 və ya 187-ci maddəsi ilə tövsif edilməsi), cinayətlərin təsnifatının müəyyən edilməsi (Cinayət Məcəlləsinin 15-ci maddəsinə müvafiq olaraq yalnız qəsdən törədilmiş cinayətlər xüsusilə ağır cinayətlər hesab olunur), cəzaçəkmə müəssisəsinin növünün təyin edilməsi (Cinayət Məcəlləsinin 56.1-ci maddəsi) kimi məsələlərin həlli üçün zəruridir.

Cinayət qanunvericiliyi təqsirin iki - qəsd və ehtiyatsızlıq formalarını fərqləndirir. Belə ki, Cinayət Məcəlləsinin 24-cü maddəsinə əsasən, əməli (hərəkət və ya hərəkətsizliyi) yalnız qəsdən və ya ehtiyatsızlıqdan törətmiş şəxs cinayət törətməkdə təqsirli sayılır. Ehtiyatsızlıqdan törədilmiş əməl (hərəkət və ya hərəkətsizlik) yalnız bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsi ilə nəzərdə tutulmuş hallarda cinayət sayılır.

Birbaşa və ya dolayı qəsdlə törədilmiş əməl (hərəkət və ya hərəkətsizlik) qəsdən törədilmiş cinayət sayılır. Şəxs öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) ictimai təhlükəli olduğunu dərk etmiş, onun ictimai təhlükəli nəticələrini qabaqcadan görmüş və bunları arzu etmişdirsə, bu halda cinayət birbaşa qəsdlə törədilmiş hesab olunur. Şəxs öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) ictimai təhlükəli olduğunu dərk etmiş, onun ictimai təhlükəli nəticələrini qabaqcadan görmüş, lakin bunları arzu etməmiş və belə nəticələrin baş verməsinə şüurlu surətdə yol vermişdirsə, bu halda cinayət dolayı qəsdlə törədilmiş hesab olunur. Cinayətkarcasına özünəgüvənmə və ya cinayətkarcasına etinasızlıq nəticəsində törədilmiş əməl (hərəkət və ya hərəkətsizlik) ehtiyatsızlıqdan törədilmiş cinayət sayılır. Şəxs öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) ictimai təhlükəli nəticələr verə biləcəyi imkanını qabaqcadan görmüş, lakin kifayət qədər əsas olmadan onların qarşısını alacağını güman etmişdirsə, bu əməl (hərəkət və ya hərəkətsizlik) cinayətkarcasına özünəgüvənmə nəticəsində törədilmiş cinayət hesab olunur. Şəxs öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) ictimai təhlükəli nəticələr verə biləcəyi imkanını lazımi diqqət və ehtiyatlılıq göstərərək qabaqcadan görməli olduğu və görə biləcəyi halda, onları görməmişdirsə, bu əməl (hərəkət və ya hərəkətsizlik) cinayətkarcasına etinasızlıq nəticəsində törədilmiş cinayət hesab olunur (Cinayət Məcəlləsinin 25 və 26-cı maddələri).

Qeyd edilməlidir ki, subyektiv cəhətin müstəqil əlamətləri kimi motiv və məqsəd yalnız qəsdən törədilən cinayətlər zamanı, yəni qanunla qorunan ictimai dəyər, maraq və ya sərvətlərə zərər vurmaq meyli və niyyətinin olduğu hallarda mövcud olur. Təqsirin ehtiyatsızlıq formasında isə şəxsin niyyəti təhlükəli nəticələrin baş verməsinə yönəlmir. Ehtiyatsızlığın hər iki növündə cinayətin motiv və məqsədi deyil, müvafiq nəticələrin baş verməsinə səbəb olmuş davranışın motiv və məqsədləri mövcud ola bilər. Burada davranışın motivi və məqsədi ilə baş vermiş ictimai təhlükəli nəticə arasında daxili əlaqə olmur.

Cinayət hüquq nəzəriyyəsində təqsirin qarışıq (ikili) forması da mövcuddur. Qarışıq təqsir ilə törədilən cinayət zamanı şəxsin ictimai təhlükəli əmələ münasibəti qəsd, bu əməlin ictimai təhlükəli nəticələrinə münasibəti isə ehtiyatsızlıq formasında ifadə olunur.

İkili təqsir forması ilə törədilən cinayətlər obyektiv cəhətin quruluşundan asılı olaraq iki qrupa bölünür: iki nəticəyə səbəb olan maddi tərkibli cinayətlər; ehtiyatsızlıqdan daha ağır nəticələrə səbəb olmuş formal tərkibli cinayətlər.

Cinayət Məcəlləsinin Ümumi hissəsində qarışıq (ikili) təqsir müstəqil təqsir forması kimi müəyyən olunmasa da, Məcəllənin Xüsusi hissəsi ilə nəzərdə tutulan bəzi cinayət tərkibləri onların qarışıq təqsir forması ilə törədilməsini söyləməyə əsas verir.

Məsələn, Cinayət Məcəlləsinin 126.3-cü maddəsi iki nəticəyə səbəb olan maddi tərkibli qarışıq təqsir formasında törədilən cinayətdir. Bu cinayəti törədən şəxs qəsdən sağlamlığa ağır zərər vurmaqla (126.1), ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olur (126.3). Beləliklə, bir hərəkətlə iki nəticə - qəsdən sağlamlığa ağır zərər vurulur və ehtiyatsızlıqdan ölüm baş verir. Bu nəticələrdən hər biri müstəqil cinayət tərkibini yaradır.

Qarışıq təqsir forması ilə törədilən ehtiyatsızlıqdan daha

ağır nəticələrə səbəb olan formal tərkibli cinayətlərə misal olaraq Cinayət Məcəlləsinin 146-cı maddəsini göstərmək olar. Həmin Məcəllənin 146.1-ci maddəsinə əsasən, psixi cəhətdən sağlam olan şəxsi biləbilə psixiatriya xəstəxanasına yerləşdirmə əməli formal tərkibli cinayət olmaqla hər hansı nəticələrin baş verib-verməməsindən asılı olmayaraq məsuliyyətə səbəb olur. Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda fərqli ictimai təhlükəli nəticələr baş verir (Cinayət Məcəlləsinin 146.3-cü maddəsi). Beləliklə, bir hərəkət nəticəsində iki ictimai təhlükəli əməl törədilir: psixiatriya xəstəxanasına yerləşdirmə - qəsdən, zərərçəkmiş şəxsin ölümü və ya digər ağır nəticələr isə ehtiyatsızlıqdan baş verir.

Qarışıq təqsir forması vasitəsilə qanunverici qəsdən cinayət törətmiş şəxsin bir hərəkətinin (hərəkətsizliyinin) ehtiyatsızlıqdan daha ağır nəticələrə səbəb olmasına görə onun cinayət məsuliyyətini ağırlaşdırır.

Qarışıq təqsir forması ilə törədilən cinayətlər özünəməxsus quruluşa malikdir. Qanunverici bir tərkibdə biri qəsdən, o biri isə ehtiyatsızlıqdan törədilən iki tərkibi birləşdirir. Belə qarışıq təqsir formalı tərkibə malik cinayətlər bütövlükdə qəsdən törədilən cinayət hesab olunur. Belə ki, ehtiyatsızlıqdan baş verən ictimai təhlükəli nəticələr məhz qəsdən törədilən ictimai təhlükəli əməlin nəticəsində baş verir.

Bununla belə, qarışıq təqsir forması ilə törədilən cinayəti yaradan iki əməldən hər biri ayrılıqda da cinayət xarakterini itirmir. O da qeyd edilməlidir ki, qarışıq təqsir forması ilə törədilən cinayətin tərkib hissəsi olan əməllərdən hər biri öz obyektinə malikdir. Odur ki, qarışıq təqsir forması ilə törədilən cinayətlər çoxobyektli cinayətlərdir.

Beləliklə, bir hərəkətlə bir ictimai təhlükəli nəticəyə səbəb olan maddi tərkibli cinayət qarışıq təqsir forması ilə törədilə bilməz. Bu zaman cinayət ya qəsdən, ya da ehtiyatsızlıqdan törədilmiş olur.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Cinayət Məcəlləsinin 142.3-cü maddəsi ilə nəzərdə tutulmuş əməl birobyektli maddi tərkibli cinayət olmaqla, bir ictimai təhlükəli nəticəyə səbəb olduğundan bir təqsir forması ilə törədilən cinayətdir. Belə ki, maddi tərkibli cinayətin obyektiv cəhətini süni olaraq bölərək şəxsin əvvəlcə hərəkətə (hərəkətsizliyə), sonra isə nəticəyə psixi münasibətinin müəyyən edilməsi ədalət prinsipinin pozulmasına gətirib çıxara bilər. Burada nəzərə alınmalıdır ki, öz-özlüyündə tibb işçisinin xəstəyə kömək göstərməməsi cinayət məsuliyyətinə səbəb olmur. Cinayət məsuliyyətinin yaranması tibb işçisinin hərəkətsizlikdə ifadə olunan əməlinin xəstənin sağlamlığına az ağır, ağır zərər vurulması və ya xəstənin ölümü kimi nəticəyə səbəb olması ilə şərtləndirilir.

Qeyd edilməlidir ki, Cinayət Məcəlləsinin 24.2-ci maddəsinə görə, ehtiyatsızlıqdan törədilmiş əməl (hərəkət və ya hərəkətsizlik) yalnız bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsi ilə nəzərdə tutulmuş hallarda cinayət sayılır.

Cinayət Məcəlləsinin 142-ci maddəsinin, o cümlədən 142.3-cü maddəsinin dispozisiyasında isə tibb işçisinin xəstəyə kömək göstərməməsi nəticəsində baş vermiş zərərçəkmişin ölümünə psixi münasibətinin ehtiyatsızlıqla ifadə olunmasına dair hər hansı müddəa nəzərdə tutulmamışdır.

Bununla belə, Cinayət Məcəlləsinin şərh edilən 142-ci maddəsinin məzmunu, həmin maddənin sanksiyası və bütövlükdə Məcəllədə nəzərdə tutulmuş xüsusi qaydaların pozulması ilə törədilən maddi tərkibli cinayətlərin əlaqəli təhlili belə nəticəyə gəlməyə əsas verir ki, qeyd olunan cinayət əməli subyektiv cəhətdən təqsirin ehtiyatsızlıq formasında törədilmiş olur. Bu zaman həmin maddənin dispozisiyasında "ehtiyatsızlıqdan" sözünün işlədilməməsi bu cinayətin hüquqi təbiətini dəyişən hal kimi qiymətləndirilə bilməz.

Tibb işçisi üzrlü səbəblər olmadan tibbi yardımın göstərilməsindən imtina etməklə və ya yayınmaqla xəstənin sağlamlığına zərər vurmasını ehtimal edir, lakin əsassız olaraq özünə güvənərək bunun qarşısını ala biləcəyini düşünür və ya öz hərəkətsizliyinin nəticələrini qabaqcadan ehtimal etmir, halbuki lazımi diqqət göstərildiyi təqdirdə belə nəticələri qabaqcadan görə bilərdi.

Belə ki, bu əməl qəsdən törədildiyi halda, yəni tibb işçisi köməyə ehtiyacı olan şəxsə

münasibətdə ağır nəticələrin baş verməsini arzu edirsə və ya şüurlu surətdə buna yol verirsə və bu məqsədlə müvafiq tibbi yardımı göstərmirsə, yaranan nəticələrdən asılı olaraq bu əməl Cinayət Məcəlləsinin 127, 126 və ya 120-ci maddələrində nəzərdə tutulan cinayət məsuliyyətini yaratmış olar.

Bu baxımdan, həkim nəzarəti altında olan şəxsin sağlamlığına zərər vurulduqda və ya öldükdə təqsirkarın niyyətinin nəyə yönəlməsi, əməlin motiv və məqsədi, o cümlədən təqsirkarın və zərərçəkmiş şəxsin qarşılıqlı münasibətləri, təqsirkarın hadisədən sonrakı hərəkətləri və s. araşdırılmalıdır.

Konstitusiya Məhkəməsinin Plenumu həmçinin qeyd edir ki, tibb işçisi xidməti vəzifələrinin yerinə yetirməsi ilə əlaqədar Cinayət Məcəlləsinin 124.1-ci (ehtiyatsızlıqdan adam öldürmə) və 131.2-ci (ehtiyatsızlıqdan sağlamlığa ağır zərər vurma) maddələrində nəzərdə tutulmuş cinayətlərin də subyekti ola bilər. Cinayət Məcəlləsinin 142-ci maddəsində göstərilən əməldən fərqli olaraq, bu zaman tibb işçisinin əməli hərəkətdə ifadə olunur. Tibb işçisi qanunvericilik və ya xüsusi qaydalar ilə üzərinə qoyulan vəzifələri yerinə yetirir, lakin müəyyən subyektiv faktorlara görə (dərman dozasının aşılması, gigiyena qaydalarının pozulması, konsilium məsləhətlərinə əməl etməmə və s.) onun hərəkətləri ictimai təhlükəli nəticəyə səbəb olur.

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, tibb işçisinin xəstənin sağlamlığına zərər vurması və ya ölümü ilə nəticələnən əməli tövsif olunarkən, bu əməlin hərəkət və ya hərəkətsizliklə törədilməsinə xüsusi diqqət yetirilməlidir.

Qeyd edilənləri nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, bu qəbildən olan cinayət işləri üzrə şəxsin təqsirlilik məsələsi həll edilərkən işin bütün faktiki halları hərtərəfli, tam və obyektiv araşdırılmalı, təqsirləndirilən şəxsin hərəkət və ya hərəkətsizliyinin nədə ifadə olunması məhkəmə aktlarında göstərilməli və xüsusi qayda pozuntuları ilə baş vermiş nəticə arasında səbəbli əlaqənin mövcudluğu müəyyən edilməlidir.

Beləliklə, Cinayət Məcəlləsinin 142-ci maddəsində nəzərdə tutulmuş əməl subyektiv cəhətdən təqsirin ehtiyatsızlıq formasında törədildiyindən, bu maddə ilə təqsirli bilinən şəxslər üçün cəzaçəkmə müəssisəsinin növü həmin Məcəllənin 56-cı maddəsinə müvafiq olaraq müəyyən edilir.

Göstərilənlərə əsasən, eləcə də Cinayət Məcəlləsinin təqsirə görə məsuliyyət və ədalət prinsiplərini rəhbər tutaraq Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticəyə gəlir:

- Cinayət Məcəlləsinin 142-ci maddəsinin mənasına görə zərərçəkmiş şəxsin sağlamlığına az ağır, ağır zərər vurulmasına, habelə ölümünə səbəb olan tibb işçisi tərəfindən üzrlü səbəblər olmadan xəstəyə tibbi yardım göstərilməməsi təqsirin ehtiyatsızlıq formasında törədilir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 142-ci maddəsinin mənasına görə zərərçəkmiş şəxsin sağlamlığına az ağır, ağır zərər vurulmasına, habelə ölümünə səbəb olan tibb işçisi tərəfindən üzrlü səbəblər olmadan xəstəyə tibbi yardım göstərilməməsi təqsirin ehtiyatsızlıq formasında törədilir.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

3. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

4. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:**
**Fərhad Abdullayev**

*Bakı şəhəri, 7 aprel 2021-ci il*

## Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 85.3 və 85.4-cü maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinin V hissəsinə uyğunluğunun yoxlanılmasına dair

# AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev (məruzəçi-hakim), Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VII hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, konstitusiya məhkəmə icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) sorğusu əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 85.3 və 85.4-cü maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinin V hissəsinə uyğunluğunun yoxlanılmasına dair konstitusiya işinə baxdı.

İş üzrə hakim C.Qaracayevin məruzəsini, maraqlı subyektlərin nümayəndələri Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) Aparatının Elmi-analitik sektorunun müdiri M.Məmmədovun və Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin Hərbi qanunvericilik sektorunun müdiri E.Əsgərovun, mütəxəssis Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının hakimi Ə.Novruzovun mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru, professor Ş.Səmədovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra - Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra - Cinayət Məcəlləsi) 85.3 və 85.4-cü maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra - Konstitusiya) 12-ci maddəsinin I hissəsinə, 17-ci maddəsinin IV və V hissələrinə, 26-cı maddəsinin II hissəsinə, 71-ci maddəsinin I və II hissələrinə, 149-cu maddəsinin I və III hissələrinə uyğunluğunun yoxlanılmasını xahiş etmişdir.

Sorğuda göstərilmişdir ki, Cinayət Məcəlləsinin 84.1-ci maddəsinə əsasən, cinayət törədərkən on dörd yaşı tamam olmuş, lakin on səkkiz yaşına çatmayan şəxslər yetkinlik yaşına çatmayanlar hesab olunur. Cinayətin subyekti olan yetkinlik yaşına çatmayanlara təyin edilə bilən cəza növlərindən biri ictimai işlərdir. Cinayət Məcəlləsinin 85.3-cü maddəsinin tələbinə görə, ictimai işlər səksən saatdan üç yüz iyirmi saatadək müddətə təyin olunur və yetkinlik yaşına çatmayan

məhkumun bacardığı, onun təhsildən və əsas işindən asudə vaxtlarda yerinə yetirdiyi işlərdən ibarətdir. Bu cəza növünün icra müddəti on beş yaşınadək şəxslər üçün gündə iki saatdan, on beş yaşından on altı yaşınadək şəxslər üçün isə gündə üç saatdan çox ola bilməz.

Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin (bundan sonra - Cəzaların İcrası Məcəlləsi) 35.1-ci maddəsinə görə, məhkumlar ictimai işləri yerinə yetirdikləri yerin müəssisədaxili intizam qaydalarına riayət etməli, əməyə vicdanla yanaşmalı, onlar üçün müəyyən olunmuş yerlərdə və hökmdə müəyyən olunmuş müddətdə işləməli, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada elektron nəzarət vasitəsindən istifadə etməli, elektron nəzarət vasitəsini ictimai işlərin yerinə yetirildiyi yerlərdə gəzdirməli, həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etməli və yaşayış yerini dəyişdikdə bu barədə icra məmuruna məlumat verməlidirlər.

Sorğu onunla əsaslandırılmışdır ki, Konstitusiyanın 17-ci maddəsinin IV və V hissələrinə, 26-cı maddəsinin II hissəsinə müvafiq olaraq, uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır. 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir. Cinayət Məcəlləsinin 85.3-cü maddəsində isə on beş yaşınadək şəxslərin təhsilindən və əsas işindən asudə vaxtlarında bacardıqları işlərin icrasına cəlb edilməsi nəzərdə tutulmuşdur.

Sorğuverənin qənaətinə görə, ictimai işlər cəzasının işləməsi qadağan olunan 15 yaşınadək şəxslərə münasibətdə tətbiqi onların azadlıq hüququnun məhdudlaşdırılmasına, sağlamlığının qorunması hüququnun, eləcə də bu kateqoriya şəxslərin əmək fəaliyyətinə cəlb edilməsinin qadağan olunması ilə bağlı Konstitusiya normalarının pozulmasına səbəb ola bilər. Halbuki, Konstitusiyanın 149-cu maddəsinin I və III hissələrində göstərilir ki, normativ hüquqi aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalıdır. Qanunlar Konstitusiyaya zidd olmamalıdır.

Sorğuda həmçinin qeyd olunur ki, Cinayət Məcəlləsinin 85.4-cü maddəsinə əsasən, yetkinlik yaşına çatmayanlara islah işləri iki aydan bir ilədək müddətə təyin edilir. Bu zaman məhkumun qazancından məhkəmənin hökmü ilə müəyyən edilmiş miqdarda, beş faizdən iyirmi faizə qədər pul dövlət nəfinə tutulur.

İslah işləri növündə cəza məhkumun əsas iş yeri üzrə çəkilir. İslah işləri növündə cəzaya məhkum olunmuş şəxslər məhkum edilməzdən əvvəl işlədikləri vəzifədə və ya işdə qalırlar. Bu şəxslər başqa vəzifəyə və ya işə yalnız əmək qanunvericiliyi ilə müəyyən olunmuş qaydada və ümumi əsaslarla keçirilə bilərlər (Cəzaların İcrası Məcəlləsinin 40 və 41.1-ci maddələri).

Sorğuverən hesab edir ki, 14 yaşından 15 yaşınadək olan yetkinlik yaşına çatmayanların işləməsi və onlara ictimai işlər və əsas iş yeri üzrə çəkilən islah işləri növündə cəzaların tətbiqini nəzərdə tutan Cinayət Məcəlləsinin 85.3 və 85.4-cü maddələri hüquqa və haqq-ədalət meyarlarına cavab verməməklə Konstitusiyanın 17-ci maddəsinin V hissəsi, eləcə də digər qeyd olunan normaların tələbləri ilə ziddiyyət təşkil edir.

Konstitusiya Məhkəməsinin Plenumu sorğu ilə əlaqədar aşağıdakıları qeyd etməyi zəruri hesab edir.

Konstitusiyanın 17-ci maddəsinin IV və V hissələrində göstərilmişdir ki, uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır. 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər.

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra - "Uşaq hüquqları haqqında" Qanun) 1-ci maddəsinə uyğun olaraq, uşaqların hüquq və vəzifələri 18 yaşına (yetkinlik yaşına) çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən hər bir şəxsə aid edilir. Konstitusiyaya uyğun olaraq uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir. Dövlət orqanları, bütün fiziki və hüquqi şəxslər öz fəaliyyətində uşaqların mənafelərini üstün tutmalı, onların hüquqlarının

təmin olunmasına şərait yaratmalıdırlar. Azərbaycan Respublikasının normativ hüquqi aktları və müvafiq orqanların qərarları uşaq mənafelərinə zidd olmamalı və onların icrası uşaqların həyatına, inkişafına və tərbiyəsinə zərər gətirməməlidir ("Uşaq hüquqları haqqında" Qanunun 4 və 5-ci maddələri).

Uşaqların yaşına, səhhətinə, ümumtəhsil və peşə hazırlığı səviyyəsinə uyğun olaraq əmək hüququ vardır. Uşaqların əmək hüququnun yaranmasının və həyata keçirilməsinin şərtləri Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə müəyyən edilir.

Azərbaycan Respublikasının Əmək Məcəlləsi (bundan sonra - Əmək Məcəlləsi) işçilərlə işəgötürənlər arasında yaranan əmək münasibətlərini, habelə onlarla müvafiq dövlət hakimiyyəti orqanları, hüquqi şəxslər arasında həmin münasibətlərdən törəyən digər hüquq münasibətlərini tənzimləyir. Həmin Məcəllənin 46-cı maddəsinin 4-cü hissəsinə görə, əmək müqaviləsi on beş yaşına çatmış fiziki şəxslərlə bağlanıla bilər. 15 yaşına çatmamış şəxslərlə bağlanılan əmək müqaviləsi etibarsız sayılır və belə müqaviləni bağlayan işəgötürən bu Məcəllənin 312-ci maddəsinə uyğun olaraq inzibati məsuliyyətə cəlb edilir. On beş yaşından on səkkiz yaşınadək olan şəxslərlə əmək müqaviləsi bağlanarkən onların valideynlərindən və ya övladlığa götürənlərdən (qəyyumlarından) birinin və yaxud qanunla onları əvəz edən şəxslərin yazılı razılığı alınmalıdır. Həmçinin Əmək Məcəlləsinin 249-cu maddəsində göstərilmişdir ki, yaşı 15-dən az olan şəxslərin işə qəbul edilməsinə yol verilmir.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab edir ki, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (Ombudsmanın) sorğusunda qaldırılan məsələlər vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün əhəmiyyət kəsb edərək insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsinə yönəlmişdir. Belə ki, qeyd olunan məsələlərə aydınlıq gətirilməsi, həmçinin cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxslərin cəmiyyətə yenidən inteqrasiyasına, "risk altında" olan uşaqlara dair alternativ cəza növlərinin tətbiqinin təkmilləşdirilməsinə xidmət etmiş olar.

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu sorğuda qaldırılan məsələnin düzgün həll edilməsi üçün cinayət qanunvericiliyinə müvafiq olaraq cəza institutunun mahiyyəti və məqsədinin açıqlanmasını, eləcə də yetkinlik yaşına çatmayanlar barəsində cinayət məsuliyyətinin və cəzanın xüsusiyyətlərinin nəzərdən keçirilməsini zəruri hesab edir.

Cinayətkarlığa qarşı tətbiq edilən cinayət hüquqi təsir vasitələrinin səmərəli olması onların hüquq pozuntusu törətmiş şəxsin fərdi xüsusiyyətlərinə, törədilmiş cinayətin ictimai təhlükəlilik dərəcəsinə, xarakterinə mütənasib olması, habelə məsuliyyətin və cəzanın fərdiləşdirilməsi ilə sıx bağlıdır. Cəza cinayətin hüquqi nəticəsi olmaqla fərdin təqsirli olaraq törətdiyi ictimai təhlükəli əmələ görə dövlət tərəfindən kəskin mənfi münasibətin göstəricisi kimi çıxış edir.

Cinayət Məcəlləsinin 41-ci maddəsinə əsasən, cəza məhkəmə hökmü ilə təyin edilən cinayət-hüquqi xarakterli tədbirdir. Cəza cinayət törətməkdə təqsirli hesab edilən şəxsə tətbiq olunur və həmin şəxs barəsində Cinayət Məcəlləsi ilə müəyyən edilən məhrumiyyətlər yaradılmasından və ya onun hüquq və azadlıqlarının məhdudlaşdırılmasından ibarətdir. Cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədi ilə tətbiq edilir. Göstərilən normalardan aydın olur ki, cəza törədilmiş cinayətin hüquqi nəticəsi olmaqla cinayət qanunu ilə nəzərdə tutulan hallarda və hədlərdə təqsirkara qarşı yönəldilir və onun həmin cəzanın icrası ilə əlaqədar məhrumiyyətlərə məruz qalması cəzanın məqsədlərinə nail olunmasına xidmət edir (Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 56.1.3-cü maddəsinin şərh edilməsinə dair" 2012-ci il 12 yanvar tarixli Qərarı).

Cinayət törətmiş şəxsin

cinayət məsuliyyətinə cəlb edilməsi və cəzalandırılması üçün qanunla müəyyən olunmuş yaş həddinə çatma və anlaqlılıq zəruri şərt hesab olunur.

Cinayət törədənədək on altı yaşı tamam olmuş şəxs cinayət məsuliyyətinə cəlb edilir. On dörd yaşı tamam olmuş şəxs yalnız qəsdən adam öldürməyə, qəsdən sağlamlığa az ağır və ya ağır zərər vurmağa, adam oğurlamağa, oğurluğa, soyğunçuluğa, quldurluğa və s. əməllərə görə cinayət məsuliyyətinə cəlb edilir. İctimai təhlükəli əməli (hərəkət və ya hərəkətsizliyi) törətdiyi zaman bu Məcəllədə nəzərdə tutulmuş yaş həddinə çatmamış şəxslər barəsində görülən tədbirlər və həmin tədbirlərin tətbiqi qaydası müvafiq qanunla müəyyən edilir (Cinayət Məcəlləsinin 20-ci maddəsi).

Göründüyü kimi, Cinayət Məcəlləsində, bir qayda olaraq, şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi və cəzalandırılması üçün cinayət törədərkən on altı yaşına çatması tələb olunur. Bir sıra hallarda isə qanunverici törədilən cinayətin xarakterini, qəsdən törədilməsini, belə əməllərin kriminal xarakterini dərk etmək qabiliyyətinə malik olmanı və digər halları nəzərə alaraq ayrı-ayrı cinayətlərə görə cinayət məsuliyyətinə cəlb etmək üçün zəruri yaş həddini on dörd yaş hesab edir.

Cinayət Məcəlləsinin 84-cü maddəsinə əsasən, cinayət törədərkən on dörd yaşı tamam olmuş, lakin on səkkiz yaşına çatmayan şəxslər yetkinlik yaşına çatmayanlar hesab olunur. Yetkinlik yaşına çatmayanlar cinayət törətdikdə, onlara cəza təyin edilə bilər və ya tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər.

Qanunverici 14 yaşından 18 yaşına qədər olan şəxsləri yetkinlik yaşına çatmayanlar qrupuna aid edərkən onların kifayət qədər əqli yetişkənliyə çatmadıqlarını və həyat təcrübələrinin az olmasını nəzərə almışdır. Bu səbəbdən də cinayət qanunvericiliyi yetkinlik yaşına çatmayanların törətdiyi cinayətə görə məsuliyyətin həlli və cəza təyini zamanı onların həyat və tərbiyə şəraitinin, psixi inkişaf səviyyəsinin, onun şəxsiyyətinin digər xüsusiyyətlərinin və kənar şəxslərin ona təsirinin nəzərə alınmasını məcburi sayır.

Qanunverici cinayətin subyekti qismində çıxış edən yetkinlik yaşına çatmayan şəxslər barəsində cinayət mühakimə icraatının aparılmasının xüsusi qaydalarını, habelə bu kateqoriya şəxslərə münasibətdə tətbiq oluna biləcək məhdud sayda cəza növləri nəzərdə tutmaqla onların bu sahədə hüquq və azadlıqlarının təmin edilməsinə xüsusi diqqətlə yanaşmışdır. Bununla bağlı Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab edir ki, uşaqların müdafiəsi siyasəti Azərbaycan Respublikasının dövlət siyasətinin tərkib hissəsidir. Uşaqların hüquq və azadlıqlarının qorunması, uşaqların keyfiyyətli təhsil və yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin edilməsi, onların qayğı ilə əhatə olunması, yüksək mənəvi və sosial mühitdə böyüməsi üçün zəruri şəraitin yaradılması, hərtərəfli şəxsiyyət və layiqli vətəndaş kimi formalaşması Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin prioritet istiqamətlərini təşkil edir.

Bu baxımdan Cinayət və Cinayət-Prosessual Məcəllələrində, eləcə də "Uşaq hüquqları haqqında" Qanunda cinayət icraatı qaydalarının uşaqlara tətbiqinin ayrıca xüsusiyyətləri nəzərdə tutulmuşdur. Adıçəkilən Qanunun 42-ci maddəsinə görə, uşaqlar barəsində məhkəməyədək icraatın, həmçinin birinci, apellyasiya və kassasiya instansiyaları icraatının xüsusiyyətləri Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilir. Uşaqların törətdikləri cinayətlər üzrə məhkəməyədək icraat yalnız ibtidai istintaq şəklində aparılır. Uşaqlar barəsində həbsə alma qətimkan tədbirinin tətbiq edilməsinə yalnız onlara az ağır zorakı cinayətin, habelə ağır və ya xüsusilə ağır cinayətin törədilməsi istinad edildikdə yol verilir. Uşaqların azadlıqdan məhrum edilməsi ilə bağlı olan cəza tədbirləri məhkəmələr tərəfindən yalnız həmin məsələnin mükəmməl baxılmasından sonra tətbiq edilməli və imkan daxilində aşağı həddə təyin edilməlidir.

Cinayət Məcəlləsinin 85-ci maddəsi yetkinlik yaşına çatmayanlar barəsində tətbiq edilən

cəza növlərini məhdudlaşdıraraq cəmi 5 cəza növü (cərimə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması və müəyyən müddətə azadlıqdan məhrum etmə) müəyyən etmiş və hər bir cəza üçün qısaldılmış müddət və ya azaldılmış məbləğlər nəzərdə tutmuşdur.

Qeyd olunmalıdır ki, yetkinlik yaşına çatmayanlara təyin edilə biləcək cəza növləri müəyyən edilərkən onların əqli və iradəvi xüsusiyyətlərinin, cinayətin törədilməsi hallarının, eləcə də cəmiyyətdə olan faydalı roluna uyğun olaraq yenidən inteqrasiyasına yardım etmiş olmasının nəzərə alınması tələbi beynəlxalq hüquq normalarından da irəli gəlir.

Belə ki, bu kateqoriya şəxslərin törətdiyi cinayətə görə tətbiq edilən cəza növləri və tərbiyəvi xarakterli məcburi tədbirlər Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin 29 noyabr 1985-ci il tarixli "Yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin həyata keçirilməsinə aid minimal standart qaydaları" (Pekin Qaydaları) və "Uşaq hüquqları haqqında" 20 noyabr 1989-cu il tarixli Konvensiyası ilə müəyyən edilir. Göstərilən beynəlxalq aktlarda məhz yetkinlik yaşına çatmayan şəxslər barəsində cinayət mühakimə icraatının xüsusiyyətlərini müəyyən edən, onların hüquq və azadlıqlarına təminat verən bir sıra əsas prinsiplər və qaydalar əks etdirilmişdir.

"Uşaq hüquqları haqqında" Konvensiyanın 40-cı maddəsinə müvafiq olaraq, iştirakçı dövlətlər cinayət qanunvericiliyini pozmuş hesab edilən, onu pozmaqda təqsirləndirilən və ya təqsirli sayılan hər bir uşağın onunla elə bir rəftar hüququnu tanıyırlar ki, belə rəftar uşaqda ləyaqət və mənlik hislərinin inkişafına kömək edir, uşaqda insan hüquqlarına və başqalarının əsas azadlıqlarına hörmət hissini möhkəmləndirir və bu zaman uşağın yaşını və onun reinteqrasiyasına və cəmiyyətdə faydalı rol oynamasına kömək göstərilməsinin arzu edildiyini nəzərə alır.

Beynəlxalq hüquq normalarına uyğun olaraq formalaşmış yeni yanaşmaya görə yetkinlik yaşına çatmayan şəxs cinayəti işləmiş kimi deyil, cinayəti törədəcək şəraitə düşürülmüş şəxs kimi qiymətləndirilir. Bu yanaşma uşağı bir cinayətkar olaraq görmür və cinayətə yönəldildiyini qəbul etməklə, onu da cinayətin müəyyən mənada qurbanı kimi qəbul edir. Lakin bu vəziyyət cinayət törətmiş uşağın cəzasız qalacağı mənasına gəlməməli, tətbiq ediləcək sanksiya uşağın vəziyyətinə və törətdiyi əmələ uyğun və mütənasib olmalıdır.

Sorğuda qaldırılan məsələ ilə bağlı Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab edir ki, yetkinlik yaşına çatmayanlara təyin edilən digər cəza növləri kimi ictimai işlər cəzası da tətbiq edilərkən bu cəzanın onların psixoloji vəziyyətinə, cəmiyyətdəki inkişafına, yenidən tərbiyə edilməsinə təsiri və həmin şəxslərin ləyaqət və mənlik hislərini zədələməməsi kimi amillər diqqətlə nəzərdən keçirilməli və bu sahədə mövcud qanunvericilik aktlarının tələblərinə əməl edilməlidir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli qərarı ilə təsdiq edilmiş "İctimai işlər cəzasına məhkum olunmuş və ictimai işlər növündə inzibati tənbeh tədbiri tətbiq edilmiş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi Qaydası"nın 4-cü bəndində barəsində ictimai işlər tətbiq edilən yetkinlik yaşına çatmayan şəxslərin cəlb ediləcəyi işlərin və belə işlərin icra ediləcəyi yerlərin müəyyənləşdirilməsinin xüsusiyyətləri göstərilmişdir. Bu bəndə görə, barəsində ictimai işlər tətbiq edilən yetkinlik yaşına çatmayan şəxslərin cəlb ediləcəyi işlər və belə işlərin keçiriləcəyi yerlər müəyyənləşdirilən zaman onların təhsilindən və ya əsas işindən sonra asudə vaxtlarında yerinə yetirə biləcəyi işlər əsas götürülməli, onların yaş dövrünə uyğun psixoloji cəhətləri nəzərə alınmalıdır. Yetkinlik yaşına çatmayan şəxslərin cəlb ediləcəyi işlər və belə işlərin həyata keçiriləcəyi yerlər müəyyənləşdirilərkən onların təhsili və ya əsas işi, cinsi mənsubiyyəti, yaş dövrünə uyğun fiziki sağlamlığı və psixoloji cəhətləri, həyatı qavrama baxışları nəzərə alınır. İctimai işlərin növləri və belə işlərin həyata keçiriləcəyi yerlər müəyyən edilən zaman kənar-

dan hamının sərbəst şəkildə görə bilmədiyi, həmçinin belə işlərin icrasının digər şəxslər tərəfindən foto və video çəkilişlərinin aparılması mümkün olmadığı işlərə və iş yerlərinə üstünlük verilməlidir.

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Kollegiyasının 24 aprel 2018-ci il tarixli qərarı ilə təsdiq edilmiş "İctimai işlər növündə cəzanın və inzibati tənbehin icrası Qaydaları"na əsasən, ictimai işlərin icrası şəxsin yaşadığı ərazinin yerli icra hakimiyyəti orqanının müəyyən etdiyi ictimai yerlərdə həyata keçirilir. İctimai işlər növündə cəzanın və inzibati tənbehin məqsədlərinə barəsində ictimai işlər tətbiq edilmiş şəxsin ictimai faydalı əməkdə iştirakı vasitəsilə nail olunur. İctimai işləri şəxsin yaşadığı yerin icra məmuru icra edir.

Beləliklə, barəsində ictimai işlər tətbiq edilən şəxslərin cəlb ediləcəyi işlərin növünün və icra ediləcəyi yerlərin müəyyənləşdirilməsi, həmin şəxslərin ictimai işlərə göndərilməsi, belə işlərin təşkili və nəzarət tədbirləri qüvvədə olan cinayət, cəzaların icrası qanunvericiliyi normalarına və müvafiq "Qaydalara" uyğun olaraq həyata keçirilir. Yetkinlik yaşına çatmayan şəxslərin qanunvericilik normalarına və beynəlxalq hüquqi aktlara zidd olaraq məcburi əmək fəaliyyətinin icrasına yönəldilməsi onların psixoloji və mənəvi inkişafına, o cümlədən cəmiyyətdə formalaşmasına mənfi təsir göstərə bilər.

Qanunverici 14 yaşı tamam olmuş yetkinlik yaşına çatmayan şəxsin ictimai işlərə cəlb edilməsini mümkün hesab etməklə onlara münasibətdə digər cəza növlərinə alternativ olaraq ictimai işləri daha yüngül cəza növü kimi nəzərdə tutmuşdur. Xüsusilə vurğulanmalıdır ki, ictimai işlər növündə cəza öz təbiətinə görə islah işləri növündə cəzadan fərqli olaraq əmək hüquq münasibətlərinin əlamətlərini tam şəkildə daşımayaraq cəzaların icrası münasibətlərinin dairəsinə daxildir.

Əmək hüquq münasibəti isə əmək müqaviləsi əsasında yaranan və əmək hüquq normaları ilə tənzimlənən ictimai münasibətdir. Onun bir tərəfi - işçi müəssisədaxili intizam qaydalarına tabe olmaqla əmək müqaviləsi üzrə şərtləndirilmiş əmək funksiyasını şəxsən yerinə yetirməyi öhdəsinə götürür, digər tərəfi - işəgötürən isə işçiyə iş təqdim etməyə, sağlam və təhlükəsiz əmək şəraitini təmin etməyə və onun əməyini ödəməyə borcludur.

Əmək Məcəlləsinin 3-cü maddəsinə görə, işçi - işəgötürənlə fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlayaraq müvafiq iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxsdir. Əmək müqaviləsi (kontraktı) işəgötürənlə işçi arasında fərdi qaydada bağlanan əmək münasibətlərinin əsas şərtlərini, tərəflərin hüquq və vəzifələrini əks etdirən yazılı müqavilədir. Əmək müqavilələri sərbəst bağlanır. Əmək münasibətləri yaratmayan və ya yaratmaq istəməyən heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz (Əmək Məcəlləsinin 42-ci maddəsi).

Beləliklə, əmək münasibətləri muzdla, ödənişlə, işçinin mövcud əmək kollektivinə daxil edilməsi zərurəti (mövcud olduğu halda), eləcə də işin şəxsi icrası zərurəti ilə xarakterizə olunan sosial münasibətlərdir. Məhz bu münasibətlər əmək hüququ predmetinin əsasını təşkil edir.

Məhkumların ictimai işlərə cəlb edilməsi halında isə əmək münasibətlərinin vacib əlamətləri mövcud olmur. Belə ki, cəza-icra münasibətləri əsasında məhkumlar tərəfindən müəyyən işin yerinə yetirilməsi zamanı yaranan əmək münasibətlərinin əmək qanunvericiliyinin predmetinə aid edilməsinə imkan verməyən zəruri ünsürü qarşılıqlı razılaşmanın - əmək müqaviləsinin mövcud olmamasıdır.

Cəza-icra münasibətləri əsasında yaranan əmək münasibətlərindən fərqli olaraq, əmək müqaviləsi üzrə yaranmış əmək münasibətləri könüllü əməyi ehtiva edir və bu müqavilə əsasında işçinin Əmək Məcəlləsinin 9-cu maddəsində qeyd olunan sərbəst surətdə ixtisasına, sənətinə, peşəsinə uyğun əmək fəaliyyəti növü və iş yeri seçərək əmək müqaviləsi bağlamaq, əmək müqaviləsinin şərtlərini dəyişdirmək və ya onu ləğv etmək üçün işəgötürənə müraciət etmək, qanunvericiliklə müəyyən edilmiş minimum

məbləğdən aşağı olmayan əmək haqqı almaq və bir çox digər əsas hüquqları mövcuddur.

Konstitusiya Məhkəməsinin Plenumu cəza-icra münasibətlərinin subyektiv tərkibini, vaxt intervalını, əhatə etdiyi dövr və münasibətlərin xarakterini əsas götürərək vurğulayır ki, məhkəmə tərəfindən ittiham hökmü çıxarıldıqda dövlət və məhkum arasında yaranan əmək münasibətləri cəza-icra münasibətlərinə aid olduğundan, Konstitusiyanın 17-ci maddəsinin V hissəsi ilə yetkinlik yaşına çatmayanlara ictimai işlər cəzasının tətbiq edilməsini nəzərdə tutan qanunvericilik normaları arasında ziddiyyət yaranmır. Belə ki, 15 yaşına çatmamış uşaqların işə götürülməsinin qadağan olunmasını nəzərdə tutan normalar əmək hüququ baxımından bütün əlamətləri mövcud olan əmək münasibətlərini ehtiva edir.

Sorğuda qaldırılan digər məsələ yetkinlik yaşına çatmayanlara təyin edilən cəza növlərindən biri olan islah işləri cəzasının 15 yaşınadək şəxslərə tətbiq edilməsinin qanunvericiliyə zidd olması ilə bağlıdır. Cinayət Məcəlləsinin 85.4-cü maddəsinə əsasən, yetkinlik yaşına çatmayanlara islah işləri iki aydan bir ilədək müddətə təyin edilir. Bu zaman məhkumun qazancından məhkəmənin hökmü ilə müəyyən edilmiş miqdarda, beş faizdən iyirmi faizə qədər pul dövlət nəfinə tutulur.

Cəzaların İcrası Məcəlləsinin 40 və 41-ci maddələrinə müvafiq olaraq, islah işləri növündə cəza məhkumun əsas iş yeri üzrə çəkilir. İslah işləri növündə cəzaya məhkum olunmuş şəxslər məhkum edilməzdən əvvəl işlədikləri vəzifədə və ya işdə qalırlar. Bu şəxslər başqa vəzifəyə və ya işə yalnız əmək qanunvericiliyi ilə müəyyən olunmuş qaydada və ümumi əsaslarla keçirilə bilərlər.

Qeyd olunmalıdır ki, Cinayət və Cəzaların İcrası Məcəllələrinin islah işləri ilə əlaqədar normaları əmək qanunvericiliyinə göndəriş edərək, bu cəza növünün tətbiqi üçün məhkumun iş yerinin olmasını zəruri hesab edir.

Əmək Məcəlləsinin 3-cü maddəsinin 8-ci hissəsinə əsasən, iş yeri - işçinin haqqı ödənilməklə vəzifəsi (peşəsi) üzrə əmək müqaviləsi ilə müəyyən edilmiş işləri (xidmətləri) yerinə yetirdiyi yerdir.

Bu baxımdan qüvvədə olan qanunvericiliyə uyğun olaraq, 15 yaşınadək şəxslərin əmək münasibətlərinə girməsinə yol verilmədiyindən, islah işləri növündə cəza yalnız 15 yaşı tamam olan və ya daha çox yaşı olan yetkinlik yaşına çatmayanlar barəsində tətbiq edilə bilər.

Eyni zamanda Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab edir ki, yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayət işlərinə baxılarkən qanunvericiliyin tələblərinə uyğun olaraq onları cinayət məsuliyyətinə cəlb etmədən və ya cəzadan azad etməklə tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edərək islah olunmalarının mümkünlüyü məsələsi hər bir halda araşdırılmalıdır. Belə ki, Cinayət Məcəlləsinin 88.1-ci maddəsinə uyğun olaraq, yetkinlik yaşına çatmayan ilk dəfə böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət etdikdə, tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq etməklə onun islah olunması mümkün hesab edilərsə, həmin şəxs cinayət məsuliyyətindən azad edilə bilər. Həmçinin böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət etməyə görə məhkum edilmiş yetkinlik yaşına çatmayan müvafiq tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilməklə cəzadan azad oluna bilər (Cinayət Məcəlləsinin 89.1-ci maddəsi).

Qeyd olunan alternativ tədbirlərin tətbiq edilməsində məqsəd cinayət əməli törətmiş yetkinlik yaşına çatmayan şəxsdə şəxsi məsuliyyət hissini inkişaf etdirərək onu cəmiyyətə qaytarmaq və cəmiyyətdə faydalı rol oynamaqla uşağın düzgün inkişafına kömək etməkdir. Cinayət qanunvericiliyi yetkinlik yaşına çatmayanların islah olunması, daha ağır cəzaların tətbiqinin qarşısının alınması, onlar tərəfindən törədilən cinayətlərin residiv müəyyən edilərkən nəzərə alınmaması, yetkinlik yaşına çatmamanın cəzanı yüngülləşdirən hal olması kimi qaydalara əsaslanır. Yetkinlik yaşına çatmayan şəxsə

təyin edilən cəzanın əsas məqsədi onun cəzalandırılması deyil, günahını dərk etməsi və gələcəkdə hüquqazidd əməllər törətməsinin qarşısının alınması, uşağın olduğu mühitdən çıxarılaraq qorunması, cinayət törətmənin həyat tərzinə çevrilməsinin qarşısının alınması, yəni uşağın sağlamlaşdırılmasıdır. Bu cür cəzalandırma hüquq və qanuni maraqlarının maksimum müdafiəsi və cəmiyyətə yenidən qazandırmaq məqsədi ilə onların fərdi profilaktik tərbiyəsinə yönəlmişdir. Belə vəziyyətdə dövlət, inancları tam formalaşmamış yetkinlik yaşına çatmayanların inkişafı və əməllərini vaxtında dərk etməsi, düzgün seçim etməsi və gələcəkdə düşünülməmiş hərəkət etməməsi üçün müvafiq tədbirlərdən istifadə edir.

Bu yanaşma Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncamından da irəli gəlir.

Beləliklə, Konstitusiya Məhkəməsinin Plenumu 15 yaşınadək şəxslərin əmək fəaliyyətinə cəlb olunmasının qadağan edilməsi ilə bağlı sorğuda qaldırılan məsələyə münasibətdə göstərilənləri nəzərə alaraq aşağıdakı nəticələrə gəlir:

- Cinayət Məcəlləsinin 85.3 və 85.4-cü maddələri Konstitusiyanın 17-ci maddəsinin V hissəsi ilə ziddiyyət təşkil etmir;
- məhkəmələr ilk dəfə böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş 15 yaşınadək şəxslərə ictimai işlər cəzasının təyin edilməsi məsələsini həll edərkən, ilk növbədə, onların Cinayət Məcəlləsinin 88.1-ci maddəsinə uyğun olaraq cinayət məsuliyyətindən azad edilməsinə üstünlük verməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VII hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 52, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 85.3 və 85.4-cü maddələri Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinin V hissəsi ilə ziddiyyət təşkil etmir.
2. Məhkəmələr ilk dəfə böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş 15 yaşınadək şəxslərə ictimai işlər cəzasının təyin edilməsi məsələsini həll edərkən, ilk növbədə, onların Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 88.1-ci maddəsinə uyğun olaraq cinayət məsuliyyətindən azad edilməsinə üstünlük verməlidir.
3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.
4. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.
5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr:**
**Fərhad Abdullayev**
*Bakı şəhəri, 23 aprel 2021-ci il*

# QANUNÇULUQ

## hüquq jurnalı

**BURAXILIŞA MƏSUL:**
**Rasim Həsənov**

Təsisçinin hüquqi ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 510-10-01, 537-05-54
Qaynar xətt: (+99412) 539-76-75
www.justice.gov.az / contact@justice.gov.az

***

Redaksiyanın ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 537-06-40
Email: mojpress@justice.gov.az

"Qanunçuluq" jurnalı redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 12  Tiraj:1000 ədəd